# AUTİZMLİ FƏRDLƏR ÜÇÜN MATERİAL VƏ FƏALİYYƏT KİTABI




BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Together and Healthy Public Union

BAKI 2019 ©

Bu vəsait BP Azərbaycan və tərəfdaşlarının Azərbaycanda həyata keçirdikləri “Autizm Pozuntuları olan Şəxslərin Cəmiyyətə İnteqrasiyasına Yardım” layihəsi çərçivəsində hazırlanmışdır. Vəsaitin məzmununa və burada istifadə olunan fikir və mülahizələrə görə BP və tərəfdaşları məsuliyyət daşımır.



# AUTİZMLİ FƏRDLƏR ÜÇÜN MATERİAL VƏ FƏALİYYƏT KİTABI

MÜƏLLİFLƏR
Prof. Dr. Binyamin Birkan
Aytən Eynalova
Nərmin Rəhimli
Şəbnəm Əfəndiyeva

# KİTABIN İÇİNDƏKİLƏR


İçindəkilər ... 4
Ön söz ... 8
Çalışma planı hazırlamaq ... 10
Dəyərləndirmə etmək ... 12
Təlim planı hazırlama ... 15
Tədrislə məşğul olma ... 17
Davranış problemlərinin öhdəsindən gəlmə ... 25

**Motorika Bacarıqları** ... 32
- Taxta kubikləri deşikdən içəri atma ... 33
- Paltar sancaqlarını qutudan çıxarıb deşiyə atma ... 34
- Balaca topları deşiyə atma ... 35
- Taxta kubikləri qutudan çıxarma və deşiyə atma ... 36
- Oyuncaq parabüzənləri qutudan dartıb çıxarma ... 37
- Böyük dama daşlarını deşiyə atma ... 38
- Maşınları yerinə park etmə ... 39
- Kiçik qutuları bir araya gətirmə və deşiyə atma ... 40
- Dama daşlarını deşiyə atma ... 41
- Xırda dəmir pulları kassaya atma ... 42
- Üzün hissələrini oyuncaq yumurtaya oxşar kəlləyə taxma ... 43
- Leqolardan konstruksiya düzəltmə ... 44
- Çubuğa çarx düzmə ... 45
- Leqoları müvafiq şəklin içinə yerləşdirmə ... 46
- Rənglərinə uygun yerləşdirmə ... 47
- Muncuqları şəklin içinə yerləşdirmə ... 48
- Plastik nazik boruların içindən ip keçirmə ... 49
- Şüşə qapaqlarını xətlərin üzərindən keçirərək deşikdən içəri atma ... 50
- Böyük motorika bacarıqlarından istifadə edərək topları deşikdən içəri atma ... 51

**Eyniləşdirmə bacarıqları** ... 52
- Plastik yumurtaları rənglərinə görə eyniləşdirmə ... 53
- Paltar sancaqlarını rənglərinə görə eyniləşdirmə ... 54
- Pazl hissələrini formasına görə eyniləşdirmə ... 55
- Taxta kubikləri rənglərinə görə eyniləşdirmə ... 56
- Rəngli lövhələri eyniləşdirmə ... 57
- Sadə şəkilləri eyniləşdirmə ... 58
- Taxta kubiklərin qəliblərini eyniləşdirmə ... 59
- Detallı şəkilləri eyniləşdirmə ... 60
- Şəkilləri eyniləşdirmə ... 61
- Bir zolaq üzərində şəkilləri eyniləşdirmə ... 62
- Qutuları qapaqları ilə eyniləşdirmə ... 63
- Əşyaları şəkilləri ilə eyniləşdirmə ... 64
- Tamamilə eyni şəkilləri eyniləşdirmə ... 65
- Qar adamını tamamlama ... 66
- Rənginə görə balıq tutma ... 67
- Paltar sancaqlarını rəng və sayına görə eyniləşdirmə ... 68

**Qruplaşdırma bacarıqları** ... 69
- 2 fərqli rəngdən ibarət maşınları qruplaşdırma ... 70
- 3 fərqli rəngdən ibarət kağızları qruplaşdırma ... 71
- 4 fərqli rəngdən ibarət oyuncaq hissələri qruplaşdırma ... 72
- 3 fərqli rəngdən ibarət muncuqları qruplaşdırma ... 73
- Rəngli plastik maye çöplərini qruplaşdırma ... 74
- Oğlan və qızları qruplaşdırma ... 75
- Düymələri rənglərinə görə qruplaşdırma ... 76
- Pozanları qruplaşdırma ... 77
- 2 növ əşyanı qruplaşdırma ... 78
- Fərqli əşyaları qruplaşdırma -1 ... 79
- Fərqli əşyaları qruplaşdırma -2 ... 80
- Kartları rənglərinə görə qruplaşdırma ... 81
- Rəngli pastel karandaşları rənglərinə görə qruplaşdırma ... 82
- Plastik yemək dəstlərini qruplaşdırma ... 83
- İdman ilə bağlı kartları kateqoriyalarına görə qruplaşdırma ... 84
- Kağızları rənglərinə görə qruplaşdırma ... 85
- Eyni və fərqli olanları qruplaşdırma ... 86
- Əşyaları materiallarına görə qruplaşdırma ... 87
- Şəkilləri kateqoriyalarına görə qruplaşdırma ... 88
- Əşyaları ölçülərinə görə qruplaşdırma ... 89

**Oxuma bacarıqları** ... 90
- Əlifbanı sıralama ... 91

- Böyük hərfləri balaca hərflərlə eyniləşdirmə 92
- Sözləri sözlər ilə eyniləşdirmə 93
- Sözləri şəkillər ilə eyniləşdirmə 94
- Dənələrin sayını sözlər ilə eyniləşdirmə 95
- Rəngli qotazları sözlər ilə eyniləşdirmə 96
- Sözləri oxuyaraq rənglər ilə eyniləşdirmə 97
- Şəkilləri cümlə kartları ilə eyniləşdirmə 98
- Şəkilləri ilk səslərinə görə eyniləşdirmə (1) 99
- Şəkilləri ilk səslərinə görə eyniləşdirmə (2) 100
- Xüsusiyyət və mühitə görə eyniləşdirmə 101
- Sözlər 102
- 3 hissəli hekayəni sıraya düzmə 103
- İlk hərfinə görə sözləri eyniləşdirmə 104
- Kateqoriyalarına görə sözləri oxuma 105
- Sözləri əlifba ardıcıllığı ilə sıralama 106
- Ayları tətillər ilə eyniləşdirmə 107
- Zidd məna ifadə edən sözləri eyniləşdirmə 108

**Yazı bacarıqları** 109
- Qələm ilə qırıq-qırıq xətlərin üzərindən keçmə 110
- Xətt çəkərək əşyaların şəkilləri ilə eyniləşdirmə 111
- Hərfləri sıraya düzərək ad yazma 112
- Kubik hərfləri birləşdirərək verilən sözü düzəltmək 113
- Üzərində hərflər olan paltar sancaqları ilə söz düzəltmə 114
- Şəkillər ilə sadə cümlə qurma 115
- Sözlər ilə sadə cümlə qurma 116
- Hərf yazma 117
- Varlıqların adlarını yazma 118
- Qum üzərində hərf yazma 119
- Hərflərin üstündən yazma 120
- Hərfləri sıralayaraq söz düzəltmə 121
- Hecaları birləşdirərək söz düzəltmə 122
- Paltar sancaqları üzərindəki hecalardan söz düzəltmə 123
- Nöqtələri birləşdirərək hərf yazma 124
- Dondurma çubuqlarından hərf düzəltmə 125
- Sözləri hecalara ayırma 126
- Üzərində hərflər yazılan toplardan söz düzəltmə 127
- Hərflərdən söz düzəltmə 128

**Riyazi bacarıqlar** 129
- Plastik mismarları eyniləşdirmə 130
- Pambıq topları karton stəkanlarla eyniləşdirmə 131
- Nöqtələri sayaraq rəqəmlərlə eyniləşdirmə 132
- 1-10 arasında əşya qruplarını sayaraq rəqəmlərlə eyniləşdirmə 133
- Rəqəmləri sıralama 134
- Rəqəm ilə miqdarı eyniləşdirmə 135
- Əskik rəqəmi sıralamaya əlavə etmə 136
- Ötürərək sayma 137
- Əşyaları ölçülərinə görə sıralama 138
- Əşyalardan 1-3 arasında miqdar düzəltmə 139
- Əşyalardan 1-10 arasında miqdar düzəltmə 140
- Məntiqi ardıcıllıq ilə davam edən şablon qurma 141
- Leqodan istifadə edərək 4 əməl yerinə yetirmə 142
- Muncuqlardan müxtəlif miqdarlar düzəltmə 143
- Əşya dəstləri ilə rəqəmləri eyniləşdirmə 144
- Toplarla toplama əməli yerinə yetirmə 145
- Qovluq üzərindəki rəsm və ya əşyaların sayını tapma 146

**ƏLAVƏ 1: Nümunə FİP hədəfləri** **147**
**ƏLAVƏ 2: Nümunə məlumat formaları** **149**
**Ədəbiyyat siyahısı** **155**

## ÖN SÖZ

Bu kitabın hazırlanmasında məqsəd autizmli və inkişaf ləngiməsi olan azyaşlı uşaqların bütün potensiallarını reallaşdıra bilmələri üçün onların valideynlərinin və mütəxəssislərin iştirakı ilə sadə və asan yollarla düzəldilə bilən materiallar vasitəsilə təlimə cəlb olunmalarına kömək etməkdir.

Erkən təhsil dedikdə, inkişafında ləngimə olan uşaqların bütün potensiallarını reallaşdıra bilmələri üçün onların təhsilə mümkün qədər tez cəlb edilmələri başa düşülür. Bu kitab autizmli fərdlərlə məşğul olan valideyn və mütəxəssislərə yalnız inkişafın bütün sahələrində sadə təhsil vasaitlərinin əldə edilməsi yollarını göstərmir, eyni zamanda "Nə necə öyrədilməlidir?" sualına cavab tapmaları baxımından da önəmli mənbədir. Vəsaitdə fundamental prinsiplərdən əlavə, illərin təcrübəsi və valideynlərin nəyin daha səmərəli olduğuna dair fikirlərindən də istifadə edilməklə hazırlanmış bir çox praktik tövsiyyələrə də yer verilməkdədir.

Kitab Bp Azərbaycan şirkəti və tərafdaşlarının "Birgə və Sağlam" İctimai Birliyi ilə həyata keçirdiyi "Autizim spektr pozuntusu olan şəxslərə dəstək" layihəsi çərçivəsində beynəlxalq təhsil proqramlarına əsaslanaraq yerli və xarici mütəxəssislər tərəfindən hazırlanmışdır. Bu vəsait yalnız autizmli uşaqlara xitab etmir. Erkən diaqnoz qoyula bilən və öyrənmə potensialı olan autizmli uşaqların erkən yaşda dəstəklənəcəyi təqdirdə onların həyat keyfiyyəti böyük ölçüdə artırılmaqla ailələrinin daha rahat yaşamalarına dəstək oluna bilər.

Kitabdakı materialların autizmli uşaqlarla yanaşı orta və ağır dərəcəli əqli geriliyi olan uşaqların təlimində də istifadəsi mümkündür. Bu proqram bir çox sahədə normal şəkildə inkişaf sərgiləyən, yalnız nitqin inkişafı kimi müəyyən sahələrdə ləngimə göstərən uşaqlara da tətbiq oluna bilər. Proqramın ehtiva etdiyi fəaliyyət və materiallar hər bir uşağın fərdi xüsusiyyəti diqqətə alınaraq həyata keçirilməlidir.

Kitabın təlim materialları ilk növbədə autizmli övladlarına öz evlərində təhsil vermək istəyən valideynlər üçün nəzərdə tutulmuşdur.

Bu kitab valideynlərin öz övladlarının ən yaxşı müəllimləri olduğu inancına və onların necə səmərəli təhsil verə biləcəklərinə dair illərin təcrübələrinə əsaslanaraq hazırlanmışdır. Ailələr autizmli övladlarının müəyyən bacarıqlara sahib ola biləcəyinə inansalar, onlar da o bacarıqlara yiyələnə bilər. Müəlliflər olaraq bizim kitabın ərsiyə gəlməsindəki rolumuz sizin müəyyən bir məqsədə doğru irəliləməyinizi təmin edəcək pillələri müəyyənləşdirmək və hər bir pillənin öyrədilməsi üçün müntəzəm olaraq yol göstərməkdir.

Bütün uşaqlar hər bir bacarığa mərhələ-mərhələ yiyələnirlər. Heç bir uşaq birdən-birə yeriyə, sərbəst yemək yeyə və ya anasının şəklini çəkə bilməz. Uşaqlar bu qabiliyyətləri yavaş-yavaş, hər bir mərhələ digərinə zəmin hazırlayacaq şəkildə əldə edirlər. Bəzən uşaqlar elə bir sürətlə öyrənirlər ki, öyrənmə prosesində keçdiyi mərhələlərin fərqinə belə varılmır. Ancaq öyrənmə prosesinin addım-addım gerçəkləşdiyi dəqiqdir və bu proses uşaqların əksəriyyətində eyni gedir.

Uşağın öyrənməsini çətinləşdirən bir maneə ortaya çıxdıqda, həmyaşıdlarının asanlıqla nail olduqları məqsədlərə onların çatması üçün əlavə addımlara ehtiyac ola bilər. Məqsədə çatmaq autizmli uşaq üçün daha çox vaxt ala bilər. Ancaq atmalı olduğu addımı atmağa hazır olduğunda proses ona göstərilərsə uşaq rahatlıqla həmin məqsədə çata bilər.

Kitabda 6 müxtəlif öyrənmə istiqaməti yer alır. Bu istiqamətlər sırayla "Motorika bacarıqları", "Eyniləşdirmə bacarıqları", "Qruplaşdırma bacarıqları", "Oxuma bacarıqları", "Yazı bacarıqları" və "Riyazi bacarıqlar"dir.

Kitab üçün təlim materiallarının hazırlanmasında əməyi keçən İstanbul Aydın Universitetinin Xüsusi Təhsil Fakültəsinin sonuncu kurs tələbələrinə, Birgə və Sağlam İctimai Birliyinin dəyərli mütəxəssislərinə çox təşəkkür edirik.

**Müəlliflər Heyəti**

## ÇALIŞMA PLANI HAZIRLAMA

**Dəyərləndirmə**

Dəyərləndirmə təhsilə hazırlamağın ilk addımıdır. Dəyərləndirmə nə öyrədəcəyinizi müəyyənləşdirməyə kömək edir. Dəyərləndirmə informasiya əldə etmək məqsədi ilə həyata keçirilən müşahidə prosesidir. Nəyə baxacağınız nə öyrətmək istədiyinizdən asılıdır.

Uşaq üzərində dəyərləndirmə apararkən ona daha yaxşı öyrətmək üçün lazım olan məlumatı axtarmaqda olacaqsınız. Dəyərləndirmə əsnasında istifadə edəcəyiniz ən əsas bacarığınız uşağınızı müşahidə etmək olacaq.

Uşağınızı dəyərləndirmək üçün kitabın "Əlavə 2" bölməsində yer alan məlumat formalarından istifadə edə bilərsiniz. Məlumat formalarının sizə qazandıracağı faydalardan bəzilərini belə sıralamaq olar:

1. Uşağın necə bir inkişaf yolu keçdiyini görə bilərsiniz. Məsələn, "Uşaq proqrama başlayarkən hansı bacarıqlara sahib idi və nələri edə bilirdi?", "İndi nələri edə bilir?" kimi müqayisələr apara bilərsiniz.
2. Təhsil proqramındakı prioritetləri nəzarət altında saxlaya bilərsiniz. Məsələn, uşağın daha çox hansı inkişaf sahələrindəki bacarıqları öyrənməyə ehtiyacı olduğunu müəyyənləşdirə bilərsiniz.
3. Proqramınızı nə vaxt və hansı şəkildə dəyişdirməli olduğunuzu öyrənə bilərsiniz. Məsələn, uşağınız bir bacarığı mənimsədikdən sonra başqa hansı bacarıqları öyrənməyə hazır olduğunu görə bilərsiniz.
4. Bu sistem nələrə nail olunduğunu göstərərək, öyrədən şəxsi mükafatlandırır. Məsələn, uşağınızın "sərbəst (S)" şəkildə həyata keçirdiyi bacarıq onun öyrəndiyi bacarıqdır. S-lərin sayının çoxalması sizi sevindirəcək və bu, sizin mükafatınız olacaqdır.

Siz "Uşağımın nə edə biləcəyini bilirəm. Daim onunla birlikdəyəm. Elədiyi hər şeyi görürəm. Niyə bu qarmaqarışıq dəyərləndirmə prosesini bir kənara qoyub, onun edə biləcəyini bildiyim şeyləri işarətləyib keçmirəm?" deyə fikirləşə bilərsiniz.

Uşağınızı dəyərləndirərkən onunla bağlı müşahidələrinizdən heç bir mütəxəssisin heç vaxt edə bilməyəcəyi şəkildə istifadə edəcəksiniz. Ancaq tamamilə gündəlik müşahidələrinizdən asılı qalmağın da həm müəllimlər, həm də valideynlər üçün bəzi riskləri var. Bu risklər uşağın edə bildiklərini böyütmək (reallıqda olduğundan daha çox şey bacardığını zənn etmək) və ya, əksinə, kiçik görməkdir (azaltmaqdır).

Uşağın edə bildiklərini gözünüzdə böyütmək onun üçün daha çətin bir proqram hazırlamağınıza səbəb ola bilər. Belə bir proqram isə uşağın uğur qazanmasına mane olar. Uşağınızın bir qabiliyyətə yiyələndiyinə şahid olsanız belə, onun daha çətin bir tapşırığa hazır olub-olmadığını müəyyənləşdirmək üçün əvvəlki qabiliyyəti kifayət qədər yaxşı və tutarlı şəkildə həyata keçirdiyindən əmin olmalısınız. İndi isə belə bir nümunəyə baxaq:

Nərminə xanım oğlu Davudun sadə pazl oyununda parçaları yerinə qoyduğunu müşahidə edir. Ancaq kiçik bir yoxlamadan sonra bu işi çətin bilib başqa bir şeylə məşğul olmağa başladığını, əlavə olaraq da Davudun çox hərəkətli olması səbəbindən gözündən qaçırır. Davud pazl oyunu ilə, əvvəlcə, bir az məşğul olur, ancaq qısa müddət sonra bundan bezir. Hər bir dərs yerdə qalan pazl lövhəsi və araları pozulmuş ana-oğul münasibəti ilə başa çatır.

Uşağın potensialını kiçik görmək isə uşağınız üçün maraqsız və asan bir proqrama yol aça bilər. Müəllimlər adətən uşağın potensialının zəif tərəflərini əsas götürürlər. "Sənan əllərini bir-birinə çırpa bilmir. Ona görə də Sənan iki kubu əlləri ilə tutub üst-üstə qoya bilməz" demək asandır. Bəlkə kubları üst-üstə qoymaq əlləri çırpmaqdan daha sonra əldə edilən bacarıq olsa da, Sənan iki kubu üst-üstə qoya bilər. Bütün uşaqların inkişaf proseslərində bəzi "sıçrayış" və ya "fasilə"lərə rast gəlinir. Normal inkişaf prosesini birə-bir təqib edən uşağa rast gəlmək olduqca çətindir. Bundan başqa, uşağın fərdi xüsusiyyətləri, nələri bəyənib nələri bəyənmədiyi də fərqli bacarıqlara diqqətini nə qədər yönəltməsinə təsir edir. Əl çırpmaq Sevilin diqqətini çəkməyə bilər, amma kubları bir-birinə vurduqda çıxan səs onun xoşuna gələr və bu bacarığı mənimsəməsi üçün çalışmasını təmin edər.

Yüksək nailiyyət imkanı verən bu proqram uşağın nələri edib nələri edə bilmədiyinə dair doğru bir dəyərləndirməyə əsaslanır.

***Məlumat formaları nələrdən ibarətdir?***

"Əlavə 2"də yer alan məlumat formaları hər biri müxtəlif bacarıq sahəsini ələ alan 6 nəzarət siyahısından ibarətdir.

- **Motorika bacarıqları:** əllərin kiçik əzələlərindən istifadəyə, əl-göz koordinasiyasına əsaslanan bacarıqlar və məktəbdə öyrədilən akademik bacarıqlara zəmin hazırlayan anlayışlardır.
- **Eyniləşdirmə bacarıqları:** daha çətin və qarma-qarışıq bacarıqları və ya davranışları öyrənərkən istifadə olunan qabiliyyətlərdir. İnkişafdan geri qalan uşaqlar diqqətlərini toplamaq və fərqli sövqedici (və ya təkanverici) faktorları bir-birindən ayırd etmək məsələsində çox da bacarıqlı deyillər. Fərqləndirmək bacarığı iki fərqli sövqedici faktor arasında nəzarətin təmin edilməsi üçün istifadə olunur.
- **Qruplaşdırma bacarıqları:** bənzər əşyalar arasında əlaqə qurmaq, oxşar əşya və hadisələri bənzər şəkillərdə ələ almaqdır.
- **Oxuma bacarıqları:** məktəbəqədərki dövrdə oxumaq üçün lazım olan ilkin bacarıqları əhatə edir.
- **Yazı bacarıqları:** məktəbəqədərki dövrdə yazmaq üçün lazım olan bacarıqlardır.

- **Riyazi bacarıqlar:** fundamental riyazi hesablamalar üçün hazırlığı əhatə edən bacarıqlardır.

Bəzi bacarıqların digərləri ilə müqayisədə daha irəlidə olması da uşaqlar arasında geniş yayılan haldır. Yaş səviyyələri uşağınızın başqa şeylərlə müqayisədə güclü və zəif tərəflərini görməyinizi, dolayısıyla da təhsil prioritetlərini müəyyənləşdirməyinizi asanlaşdıra bilər.

Uşaq bəzi bacarıqlarda digərləri ilə müqayisədə daha irəlidə ola biləcəyi kimi, bəzi bacarıqlar özləri də digərləri ilə müqayisədə daha irəli səviyyədə ola bilər. Yaş səviyyələri kimi bacarıqlar da uşağınızın güclü və zəif olduğu sahələri tam olaraq müəyyənləşdirməyinizə imkan verəcək. Bacarıqlar sizin uşağınız üçün yeni məqsədlər müəyyənləşdirməkdə daha sərbəst olmağınızı təmin edəcək. Beləliklə, uşağınızın güclü olduğu sahələri genişləndirmək və eyni zamanda, çətin sahələrdə inkişaf etməsinə köməklik göstərməyiniz mümkün olacaq.

***Dəyərləndirmə maddələrində dəyişiklik etmə və uyğunlaşdırma***

Dəyərləndirmə aparmaq üçün kitabda göstərilən vasitələrin çoxu asanlıqla tapıla bilən adi əşyalardan düzəldilə bildiyi halda, bəzilərini əldə etməkdə çətinlik çəkə bilərsiniz. Ya da uşağın hansısa bir xüsusiyyəti tapşırığın kitabda izah edildiyi kimi yerinə yetirməsinə mane ola bilər. Metod və ya vasitələri vəziyyətə uyğun dəyişdirə bilərsiniz. Bir maddəni dəyişdirərkən o maddə sayəsində dəyərləndirilməyə çalışılan bacarığı nəzərə almalısınız. Hər bir bacarıqda yer alan fərqli tətbiqlərə aid açıqlamalar bu məsələdə sizə kömək edəcək. Daha sonra uşağınızın həmin bacarığa sahib olub-olmadığını yoxlamaq üçün nəzərdə tutulan o tapşırığı yerinə yetirib-yetirməyəcəyini dəyərləndirməyin başqa yolunu düşünün.

Bəzən müəyyən bir fəaliyyətə müsbət bir münasibəti olduğunda istifadə etdiyiniz metod və ya vasitələrdə də dəyişiklik edə bilərsiniz. Məsələn, uşaq tapşırığı topla yerinə yetirə bilirsə, eyni davranışı lobya torbası və ya yumşaq bir oyuncağa qarşı da göstərib-göstərmədiyini nəzərə ala bilərsiniz.

***Uşağın sizə ən yaxşı performansını göstərməyinə kömək edin***

Dəyərləndirmə prosesində uşağın edə biləcəklərinin ən yaxşısını kəşf etməyə çalışdığını görəcəksiniz. Bu məqsədinizə xidmət edəcək və ya işləri daha asan və əyləncəli hala gətirəcək bəzi tövsiyələrimiz var. İndi bunları diqqətlə oxuyun.

***Qısa seanslar planlaşdırın.*** Uzun seanslar uaşqlara ən yaxşı performansını nümayiş etdirmələrini çətinləşdirərək onları yora bilər. Buna görə də daha çox bir neçə həftə davam edən qısa seanslara üstünlük verilməlidir. Məsələn, hər bir tapşırığın müddəti uşağın diqqətini toplaya bilməsindən asılı olaraq, 3-7 dəqiqə arasında ola bilər, ancaq bu müddət 15 dəqiqəni keçməməlidir.

***Fərqli məzmunlarda seanslar planlaşdırın.*** Fərqli xüsusiyyətlərə malik tapşırıqlara təkrar-təkrar yer verin. Məsələn, riyazi bacarıqlar və daha sonra qruplaşdırma tapşırıqları; əvvəlcə balaca və daha sonra böyük oyuncaqlarla yerinə yetirilən tapşırıqlar və s.

***Hər bir dəyərləndirmə seansını uğurlu bir fəaliyyətlə başladın və sonlandırın.*** Uğur qazanmaq duyğusu uşaqların növbəti seansa cəhd göstərmə arzusunu artıracaq. Məsələn, dəyərləndirmə əsnasında uşağın sərbəst şəkildə yerinə yetirə bildiyi tapşırıqlardan bu məqsədlə istifadə edə bilərsiniz.

Çətin bir tapşırıqdan sonra asan olanına yer verin. Belə olan halda uşaq bir az dincəlmək və rahatlamaq imkanı əldə edəcəkdir.

***Dəyərləndirmə şəraitlərini fərqli edin***. Bəzi tapşırıqlar rahat stolda və ya yemək masasında yerinə yetirilə bilər.

***Dəyərləndirmə prosesinə ailə üzvlərini və uşağın dostlarını da daxil edin.*** Evdə qonaq olduqda, onun övladınızın yerinə yetirdiyi tapşırıqları müşahidə etməsinə və lazımi şəkildə müdaxilə etməsinə imkan yaradın. Bəlkə də bu yolla bəzi fəaliyyətlər övladınız üçün daha maraqlı olacaq.

***Hər gün dəyərləndirməyi planlaşdırdığınız maddələri əzbərləyin.*** Bu yolla uşaqlara göstərəcəyiniz diqqət və qayğı ən yüksək səviyyəyədə reallaşacaqdır. Onun ətrafında dəftər-qələm ilə hərəkət edərək meydana gətrəbiləcəyiniz narahatlığı aradan qaldıracaqsınız.

***Rahat olun.*** Hədəflərinizə çatmadığınızı və ya uşağın sizin zənn etdiyinizdən çox şeylər bacardığını görsəniz, dəyərləndirmə planınızı dəyişdirin. Əgər uşaq bir tapşırığı standartlara uyğun şəkildə yerinə yetirib-yetirmədiyindən əmin olmasanız, növbəti seansda həmin tapşırığı təkrarlayın.

***Dəyərləndirmə apararkən nəzərə alınması vacib olan nüanslar***

Dəyərləndirmə prosesi autizmli uşağın yaşından, qabiliyyətlərindən və xarakterindən, həmçinin sizin eləmək istədiklərinizdən və üzərinizə götürdüyünüz məsuliyyətlərdən asılı olaraq, hər gün qısa seanslar təşkil etmək şərti ilə, üç gün olduğu kimi üç həftə də davam edə bilər. Bu məsələdə konkret qayda yoxdur. Elə isə, dəyərləndirmə prosesinin uzun çəkməsindən qorxmamaq lazımdır. Ancaq dəyərləndirmə əsnasında atdığınız addımlar sizə uşağın potensialını və ehtiyaclarını öyrədəcəkdir. Amma bu proqrama əsasən, araşdırmanın mahiyyətinə uyğun olaraq, ən azı 3 gün və ən azı 3 fərqli bacarığı dəyərləndirməlisiniz.

***Uşaq üzərində dəyərləndirmə apararkən qaydalara nə qədər sadiq qalmaq lazımdır?***

Hər zaman olduğunuz qədər qaydaların tərəfdarı olmağa çalışın. Uşağın davranışları ilə əlaqəli yeni bir üsuldan istifadə etmək istəyə bilərsiniz. Ancaq yeni bir şeyi təcrübədən keçirmək üçün dəyərləndirmə prosesinin başa çatmasını gözləyin. Əvvəla, uşağın hazırda

nələri necə etdiyini müəyyənləşdirsəniz, daha sonra təcrübədən keçirəcəyiniz yeni bir yanaşmanın nəticələrini onun hazırkı potensialı ilə müqayisə etmək imkanınız olar.

Uşaqların müəyyən bacarıqları münasib vaxtlarda və ya başqaları istədikdə həyata keçirmələri önəmlidir. Digər tərəfdən, kiminsə istəyindən asılı olmayaraq, özlərinin etdikləri şeylərin də xüsusi əhəmiyyəti vardır. Bu məlumatların hər ikisi də əhəmiyyətlidir ki, onlardan necə faydalana biləcəyiniz təlim proqramı hazırlama paraqrafında sizə izah olunacaq.

Uşaqlar sizin istəklərinizi yalnız ona konfet verdiyinizdə yerinə yetirirsə, dəyərləndirmə apararkən ona konfet verməlisinizmi?

Dəyərləndirmə zamanı hər zaman edilən davranışlardan kənara çıxılması arzu olunmur. Əgər konfetlə həvəsləndirmə yolundan imtina etmək istəyirsinizsə, bunu dəyərləndirmədən sonraya saxlamaq lazımdır.

***Dəyərləndirmə apararkən uşaq yerində sakit dayanmırsa, nə etməlisiniz?***

Bu vəziyyətdə uşağın dəyərləndirmək istədiyiniz bacarığını onun öz istəyi ilə elədiyi zamanlardakı müşahidələrinizə əsasən qeyd etməlisiniz. Dəyərləndirmə vasitələri ilə öz-özünüzlə oynamağa və beləliklə uşağı da həvəsləndirməyə çalışın.

***Uşaq bir tapşırığı yerinə yetirmədikdə buna necə reaksiya verməlisiniz?***

Tapşırıq tam olaraq yerinə yetirilməsə belə uşaq cəhd etdiyi üçün onu mükafatlandırın. Əgər onun yerinə yetirməsini istədiyiniz tapşırıq çox çətindirsə, ona kömək edin və diqqətini topladığı üçün məmnun qaldığınızı hiss elətdirin. Daha sonra uşaqdan nisbətən asan bir tapşırığı yerinə yetirməsini istəyin. Ancaq ona kömək sayəsində elədiyi işə görə S (sərbəst) verməyin.

***Uşağı bütün inkişaf sahələri üzrə dəyərləndirmək lazımdırmı?***

Əgər uşağın müəyyən bir sahədə əskikliyi varsa, həmin əksiklik sizin ən çox diqqətinizi çəkən sahə olacaqdır. Ancaq yenə də uşaqları bütün sahələrdə yoxlamağınızı tövsiyə edirik. Beləliklə, onun başqa problemlərinin diqqətdən kənarda qalıb-qalmadığından əmin ola, həmçinin uşağın bütün güclü və zəif tərəflərini müəyyənləşdirə bilərsiniz. Bundan başqa, fərqli bacarıq sahələri arasında dəqiq sərhədlər qoymaq heç də həmişə asan olmur. Bacarıqları sahələr üzrə bölmək bir nizam qurmağımızı asanlaşdırdığı üçün belə bir qruplaşdırma aparırıq. Məsələn, eyniləşdirmə bacarığı ilə yazı arasında çoxlu ortaq cəhətlər var. Ona görə də, uşağın problem göstərdiyi inkişaf sahəsi ilə digər inkişaf sahələri arasındakı mümkün oxşarlıqları tapmağa çalışın.

Bu ilk dəyərləndirmə başa çatdıqdan sonra uşağın potensialı yenidən dəyərləndirilməlidirmi?

İndi sıralayacağımız səbəblərə görə autizmli uşaqlar hər 3 aydan bir təkrar dəyərləndirilməlidir:



(1) Müntəzəm fasilələrlə aparılan dəyərləndirmə uşaqlardakı inkişafı görməyinizə kömək edər, yəni sizi mükafatlandırar. (2) Uşaqların daha əvvəl qazandığı bacarıqları davam etdirib-etdirmədiyini nəzarət altında saxlamağınızı təmin edər. Əgər uşaqlar bu bacarıqlardan bəzilərini unudubsa, təkrar xatırlaması və bir daha unutmaması üçün ona fürsət verməyinizə zəmin hazırlayar.

## TƏLİM PROQRAMI HAZIRLAMA

Bu paraqrafda autizmli uşağın proqramını necə formalaşdıracağınız izah edilir. Bu proqram uşağın hazır olduğu və öyrənməsi zəruri olan kiçik bir qrup bacarıqdan ibarət olacaq. Proqramın sizin vaxtınıza və şərtlərinizə uyğun olması və bütün ailənin tələbatlarına cavab verməsi vacibdir. Uşağın proqramı sizin tərəfinizdən onun ehtiyaclarına görə hazırlanacaqdır.

Onun uzun bir müddət sonra əldə etməsini arzuladığınız bacarıqları hədəf adlandırın. Bu kitabda öz əksini tapan bacarıqlar üçün hədəflər “Əlavə 1”də göstərilib. Uşağın qısa müddətdə qazanmasını hədəflədiyiniz bacarıqların hər biri “qısamüddətli məqsədlər” adlandırılmaqdadır. Bu kitabda yer alan hər bir bacarıq sizi hədəflərinizə çatdıracaq “potensial qısamüddətli məqsədlər” kimi qəbul edilə bilər.

Qısamüddətli məqsədlərin uşaqla işləyərkən sizə iki önəmli faydası olacaq: (1) qısamüddətli məqsədlər hədəflərinizi konkretləşdirir. Beləliklə, təlim seanslarını planlaşdırmağınızı və öz-özünə ortaya çıxan təlim fürsətlərini dəyərləndirməyinizi asanlaşdırır. (2) Qısamüddətli məqsədlər bacarıqların qazanılıb-qazanılmadığını göstərir. Beləliklə, növbəti mərhələyə keçməklə bağlı qərar verməyinizi asanlaşdırır. Bacarıqların əldə olunması prosesinin hər bir pilləsi qısamüddətli məqsəd kimi düşünülə bilər.

Uşaqlar üçün müəyyənləşdirdiyiniz hədəflər onun gələcəkdə öhdəsindən gəlməli olduğu ümidlərinizdir. Uşaq bacarıq üzrə bütün tapşırıqları yerinə yetirdikdə o sahədə hədəfinizə çatmış olacaqsınız.

Dəyərləndirmənin nəticələri uşağın növbəti mərhələdə öyrənməyə hazır olduğu bacarıqları göstərəcəkdir.

***Zaman və imkanlar***

Məqsəd müəyyənləşdirərkən nəzərə almalı olduğunuz üçüncü nüans sahib olduğunuz zaman və imkanlardır. Nə qədər öyrətməli olduğunuza dair konkret bir qayda yoxdur. Ümumi bir prinsip olaraq qeyd edək ki, tələsmədən və həssaslıqla öyrədilən bir neçə bacarıq stres altında və həyəcanla öyrədilən bir çox bacarıq qədər uşağın faydasına olacaqdır. Aşağıdakı nüanslar nə qədər şey öyrədəcəyinizə dair sizə müəyyən ipucları verə bilər: Uşaq inkişafın ilk mərhələsindədirsə: Əgər uşaq hələ körpədirsə, təhsilə xüsusi bir zaman ayırmağınıza ehtiyac yoxdur. Tövsiyə edilən tapşırıqları onun oyun zamanlarında yerinə yetirə bilərsiniz.

Uşaq daha irəli səviyyədədirsə: Bu vəziyyətdə də tapşırıqların əksəriyyətini oyun və ya gündəlik işlər sırasında yerinə yetirə bilərsiniz. Xüsusi olaraq tədris seansları keçirməli olduğunuzda bu sessiyaları həm özünüz, həm də uşağıda diqqətə alaraq mümkün qədər qısa etməyiniz məsləhət görülür. 15 dəqiqədən çox davam edən təlim seansları məktəbəqədərki dövrdə uşaqlar üçün yorucu ola bilər.

***Qısamüddətli məqsədləri öz zamanınıza uyğunlaşdırın.*** Neçə dənə qısamüddətli məqsəd həyata keçirə biləcəyiniz ilk növbədə sizin uşağa ayırdığınız zamana görə seçdiyiniz məqsədlərin sayına, bir müəllim olaraq sizin və uşağınızın xüsusiyyətlərinə görə dəyişə bilər. Təxmini olaraq, 20 dəqiqəlik bir seansda 5-6 sinifləndirmə və ya yazı tapşırığı həyata keçirməyi planlaşdıra bilərsiniz. Hər seans üçün yuxarıda qeyd olunan tapşırıq sayını sizə kömək edəcək təkliflər kimi qəbul edin, zamanla sizə və uşağa ən uyğun sayıları müəyyənləşdirməyə çalışın.

***Bütün ailə üzvlərini prosesə daxil edin.*** Ailənizin digər üzvlərinə övladınıza müəyyən bir bacarığın öyrədilməsi vəzifəsini verdiyinizdə bu məsuliyyəti sevinclə yerinə yetirəcəklərdir. Nəyin öyrədiləcəyi mövzusunda onlarında da fikirlərinin öyrənilməsi nəticəsinin müsbət olması baxımından mühüm əhəmiyyət kəsb etməkdədir.

***Qısamüddətli məqsədlərinizi əhəmiyyətlilik dərəcəsinə görə sıraya düzün.*** Bu zaman bacarıq zəncirində ilk halqada olan bacarıqlara və ya uşağın ən çox ehtiyacı olan bacarıqlara üstünlük verilməlidir. Üstünlük verilməli olan bacarıqların siyahısını müəyyənləşdirərkən bacarıqlarla əlaqədar ikinci bölmənin məlumatlarından istifadə oluna bilər.

***Balanslı və maraqlı proqram hazırlayın.*** Nə qədər qısa olursa-olsun, təlim seansları rəngarəng olmalıdır. Üstünlük verilməli olan bacarıqları müəyyənləşdirərkən, bu faktoru da nəzərdən qaçırmayın. Proqramınıza uşağın güclü olduğu bir sahədə daha da inkişaf edəcəyi ən az bir tapşırığı daxil edin. Böyük ehtimalla bu, uşağın xoşuna gələcək və ondan zövq alacaqdır. Bu isə öyrənmə prosesini asanlaşdıracaqdır.

İşlərin necə getdiyini müşahidə edin. Bütün mütəxəssislər kimi valideynlər də iş prosesində müəyyən addımları atıqları zaman edilən səhvləri düzəltmə metodundan istifadə edirlər. Əvvəlcə, bir plan qurulmalı və bu plan iki həftə boyunca tam tətbiq edilməlidir. İki həftəlik yoxlamanın nəticəsi olaraq nəyin, harada və nə zaman öyrədiləcəyi ilə əlaqədar zəruri dəyişikliklər edilə bilir.



***Tədris prosesində ortaya çıxa biləcək bəzi xüsusi problemlər***

*Bacaran, lakin etməyən uşaq*

Ümumi bir prinsip olaraq, uşaqlar adətən onlara bir az çətin gələn tapşırıqlara daha çox maraq göstərirllər. Ona görə də, həmişə bir pillə çətin bacarıq yoxlama tapşırıqlarına üstünlük verilməlidir. Bundan başqa, uşaqların zövq alacağından əmin olduğunuz, amma bu kitabda yer almayan bəzi bacarıqlarını da proqrama daxil edə bilərsiniz. Bu və buna bənzər bacarıqlar sizin və uşaqların tələbləri yerinə yetirmək ehtimalını artıracaq, siz isə onu mükafatlandırma fürsəti əldə edəcəksiniz.

*Diqqət dağınıqlığı olan uşaq*

Əgər uşaq diqqətini toplama bacarığına malik deyilsə, tədris proqramının ilk qısamüddətli məqsədləri bu problemin aradan qaldırılmasına həsr olunmalıdır. Proqrama bir neçə böyük motorika ilə bağlı tapşırıqlar əlavə edə bilərsiniz. Diqqət bacarıqları bütün fərdi/sosial, kiçik motorika və nitq bacarıqları üçün bünövrə rolunu oynayır. Ona görə də, uşağın diqqət toplama ilə bağlı problemini həll etmədən digər məsələlərə keçməyə ehtiyac yoxdur.

*Erkən xüsusi təhsil proqramına davam edən uşaq*

Başqa bir mənbədən təhsil almaqda olan uşaq iki proqramın məqsədləri və ya yanaşmaları arasında çıxa biləcək ziddiyyətlərdən mənfi yöndə təsirlənə bilər. Əgər uşağın iştirak etdiyi bir təhsil proqramı varsa, bu proqramı övladınızın müəllimi ilə müzakirə edin.

***Tədrislə məşqul olma***

Tədris - uşağın ətrafının müəyyən şeyləri həyata keçirməsinə və müəyyən formalarda davranmasına daha çox imkan verəcək şəkildə tənzimlənməsidir. Burada qeyd edilən "ətraf" ifadəsi bir fəaliyyətdən əvvəl, fəaliyyət əsnasında və fəaliyyət başa çatdıqdan sonra söylədiyimiz və elədiyimiz hər şeyi və uşağın əhatəsindəki bütün fiziki hadisələri ehtiva edir.

Öyrənmə - yeni davranış və ya reaksiya formaları qazanmaq və bu arada, bəzi davranış və reaksiya formalarını tərk etməkdir. Öyrənmə kompüter istifadə etmək, qalstuk taxmaq və ya dondurma aldırtmaq üçün səsi çıxdığı qədər qışqırmaq kimi hər cür davranış və reaksiya formalarını da ehtiva edir.

Bu paraqrafda uşağa qazandırmaq istədiyiniz bacarıqları necə qazandıracağınız mövzusu ələ alınıb. Burada sizə təqdim edəcəyimiz üsullar yalnız tədris seanslarında deyil, uşaqla birgə olduğunuz bütün şəraitlərdə tətbiq edə biləcəyiniz metodlardır. Bu metodlardan bəzilərini böyük ehtimalla siz indi də istifadə edirsiniz, bəziləri isə valideynlər üçün yeni ola və bunlar övladınızla münasibətinizdə bəzi önəmli dəyişikliklər etməyinizi zəruri edə bilər. Bundan başqa, təqdim edəcəyimiz metodlardan bəziləri sizə digərləri qədər münasib və yararlı gəlməyə də

bilər. Bu metodlardan hansılarını necə istifadə edəcəyinizə dair öz şəxsi seçiminizi etməlisiniz. Ancaq hər zaman peşəkar bir müəllim olmağa çalışmalısınız. Valideynlər, xüsusilə də azyaşlı uşaqları olan valideynlər istəsələr də, istəməsələr də bir müəllimdirlər. Balaca uşaqların öyrəndiklərinin əsas hissəsi valideynlərinin və ev şəraitinin məhsuludur.

Kitabın bu paraqrafında sizə tədris prosesinin əsas prinsipləri ilə bağlı məlumat veriləcəkdir. Bu əsas prinsipləri öz övladınıza və imkanlarınıza görə uyğunlaşdıraraq, hər bacarığın öyrədilməsi üçün istifadə edə bilərsiniz. Bu prinsiplər xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili sahəsində geniş şəkildə tətbiq olunan prinsiplər arasından seçilmişdir.

Bəzi bacarıqların ən yaxşı şəkildə öyrədilməsi üçün səssiz bir şəraitdə reallaşdırılan, uşağın diqqətini fəaliyyətə toplamasını və tapşırıqları dəfələrlə təkrarlamasını təmin edən strukturlaşdırılmış tədris seansları təşkil olunmalıdır. Bəzi bacarıqlar isə gündəlik həyatda o bacarığa uyğun fürsətlər çıxdıqca öyrədilir. Belə bacarıqlar evdəki gündəlik səs-küylü ortamda və bir çox insanın da iştirakı ilə - təkrarlamaq fürsəti olmadan - əldə edilir.

Öyrənmə prosesini 3 mərhələdə ələ alacağıq:

* Uşaq fəaliyyətə (verilən tapşırığın icrasına) başlamadan görülməli işlər

* Uşaq fəaliyyətdə olarkən görülməli işlər

* Uşaq fəaliyyəti bitirdikdən sonra görülməli işlər

Öyrənmə hər zaman 3 mərhələli bir proses olaraq nəzərdən keçirilməlidir. Öyrənməni asanlaşdırmaq üçün hər bir mərhələ əvvəlcədən planlaşdırılmalı və ehtiyac olduqda yenidən baxılmalıdır. Daha sadə desək, öyrətmə belə həyata keçirilməlidir:

Əvvəla, uşaqdan özünün nə etmək istədiyini soruşun. Daha sonra, ehtiyac olsa, uşağın o işi görməsinə kömək edin. Uşaq o işi gördükdən sonra isə ona bu işi çox gözəl bacardığını söz və ya davranışınızla hiss elətdirin.

Təbii ki, hər bir mərhələ ilə bağlı deyilə biləcək çox şey vardır. Amma əgər bu 3 mərhələni belə sadə şəkildə axlınızda saxlasanız, aşağıda yer alan təfərrüatları başa düşməyiniz daha asan olacaqdır.

Uşaq fəaliyyətə başlamazdan əvvəl etməli olduqlarınız

Hər hansı bir fəaliyyətə başlamazdan əvvəl əsas iş uşağın diqqətini çəkməkdir. Uşaq sizə baxdıqdan sonra fəaliyyət üçün bu hazırlıqları edin:

***Təlimat vermə***

Uşağa təlimat verərkən riayət etməli olduğunuz qaydalar aşağıda sırayla verilib:

1. Sadə şəkildə uşağa ondan nə etməyini istədiyinizi söyləyin

2. Təlimat verərkən hər dəfə oxşar ifadələr işlətməyə çalışın ki, uşaq təlimatın nə mənaya gəldiyini anlasın

3. Təlimatlarınızı uşağın öyrənməkdə olduğu addıma uyğun verin. Uşaq bir qutuya deşikdən əşya atmağı öyrəndikdən sonra "içinə at" təlimatı yerində olacaqdır. Ancaq bacarığı öyrənmə mərhələsində ikən tapşırıqları kiçik hissələrə (addım-addım) ayırmalısınız və hər bir addım üçün münasib təlimat seçməlisiniz. Məsələn, "sancaqları əlinə al", "deşikdən içəri at" və s. Əgər nəyi öyrətməyi hədəflədiyinizi bilsəniz, təlimatlarınız da aydın və konkret olacaq.

Təbii ki, bu təlimatları hərbi tapşırıq formasında söyləməyə ehtiyac yoxdur. Uşağa ondan nə istədiyinizə dair məlumat verməyiniz kifayətdir.

***Model olmaq***

Əgər təlimatınız övladınıza nə etməli olduğu ilə bağlı kifayət qədər məlumat vermirsə, bunu ona siz göstərə bilərsiniz. Göstərərkən onun sizə baxmasını istəyin, yavaşca və aydın şəkildə bunu edin. Bəzi tapşırıqlarda seans əvvəlində bir dəfə nümunə göstərməyiniz kifayət etdiyi halda, bəzilərində hər dəfə təkrarlamağa ehtiyac ola bilər.

Model olmaq övladınızdan nə istədiyinizi tam olaraq göstərdiyi və onun sizi təqlid etməsinə zəmin hazırladığı üçün çox əlverişli metoddur. Amma unutmayın ki, övladınızın nail olmasını istədiyiniz uzunmüddətli məqsəd bacarığın tam mənimsənilməsi ilə bağlı tapşırığı sərbəst şəkildə özünün etməsidir. Ona görə də, övladınız bir bacarıqda təkmilləşdikcə siz ona daha az nümunə olmalısınız.

Ailənin digər üzvlərinin və yaxın şəxslərinin də övladınıza nümunə olmaları üçün yollar axtarmalısınız. Başqalarının nümunə olması övladınıza əyləncəli gələ və həmçinin, başqalarına da tədris prosesinə qatılmaq imkanı verə bilər. Tədris seansları hər kəsin növbə ilə iştirak etdiyi əyləncəli bir oyuna çevrilə bilər.

Övladınız fəaliyyətdə olarkən sizin etməniz gərəkənlər olduqca sadədir.

Məqsədiniz övladınızın sizin heç bir köməyinizə ehtiyac duymadan tapşırığı sərbəst şəkildə yerinə yetirməsi və bacarığı mənimsəməsidir. Ancaq yeni bir tapşırıqla qarşılaşdıqda, demək olar ki, həmişə az da olsa, sizin dəstəyinizə ehtiyacı olacaq. Övladınıza nələrsə deyərək və ya nələrsə göstərərək yardım edə bilərsiniz.

***Daha çox açıqlama vermək***

Daha çox açıqlama vermək "şifahi ipucu" adlandırılır. Övladınız tapşırığı yerinə yetirərkən verəcəyiniz ipucları ona həm nə edəcəyinə dair əlavə məlumat verər, həm də fəaliyyətə davam etməsi üçün həvəsləndirər.

Şifahi təlimat metodundan istifadə edən valideynlərdən "təlimat vermək", "model olmaq" və "şifahi ipucu" kimi məsələlərə aşağdaki nümunələr aydınlıq gətirə bilər.

***Nümunə -1***

*Ana: Gəl, qüllə düzəldək. Bu kub fiqurlarını bir-birinin üzərinə qoy.*

*Nicat: (Fiqurları bir-birinə vurur)*
*Ana: Bax, mən bu fiquru digərinin üstünə qoyuram (nümunə göstərir). İndi növbə sənindir.*
*Nicat: (Cəhd edir, ancaq fiqur yerə düşür. Çünki fiquru lazım olan qədər yuxarı qaldıra bilməyib)*
*Ana: Bir az da çalışsan, bu iş alınacaq. Gəl, bir də yoxla (Nicat yorulmağa başlayır). Fiqur bir az da qalxsın, qalxsın, qalxsın.. Bax, indi BURAX!*

***Nümunə - 2***

*Ana: Bax, Günay, ana bir dairə çəkir. Gəl sən də çək.*
*Günay: (Kağızı qaralayır)*
*Ana: Yuvarlaq tamamlanınca dayan*
*Günay: (Yuvarlaq tamamlanır, ancaq Günay dayanmır)*
*Ana: İndi daha yaxşı oldu. Gəl bir daha yoxla. (Göstərir) Yuvarla…. və …. DAYAN!*

Daha çox açıqlama vermək uşağın sərbəst şəkildə tapşırığı yerinə yetirməsini çətinləşdirmir. Uşaq şifahi yardım sayəsində tapşırığın böyük hissəsini yerinə yetirəcək hala gələndə şifahi dəstək yavaş-yavaş azaldabilər.

***Fiziki yardım göstərin***

Fiziki yardım göstərməyi biz "fiziki ipucu" adlandırırıq. Fiziki ipucu, ümumiyyətlə, şifahi ipuclarından daha intensiv bir yardımı ehtiva edir və uşağın bir bacarığı yeni öyrənməyə başladığı mərhələdə çox işə yarayır. Fiziki ipucu çox yüngül bir toxunuşdan tutmuş, güclü bir dəstəyə qədər fərqli səviyyələrdə ola bilər. Əsas odur ki, lazım olandan çox fiziki ipucu göstərilməsin. Övladınız bacarığı mənimsəməkdə ustalaşdıqca, tədricən fiziki ipucuların dərəcəsini azaltmalısınız.

İndi bəzi nümunələrə baxa bilərik. İki uşağın yeni bacarıqları necə mənimsədiyi izah olunacaq. Fiziki ipucları tünd rəngdə yazılıb. Uşaqlar bacarığı mənimsədikcə fiziki ipuclarının azaldığı görüləcəkdir.

Birinici nümunədəki uşağımız olan Banu 11 aylıq idi, karton səhifəli kitabı səhifə-səhifə çevirməyi öyrənirdi. Anası Banuya açıq bir təlimat verdi və bunu necə edəcəyini göstərdi. Ancaq Banuya bu qədər məlumat kifayət etmədi. Anası bir əli ilə səhifələrin birini digərindən ayırdı və digər əli ilə Banunun əlini tutaraq ona səhifəni çevirtdi. Banu nə edəcəyini başa düşdükdə, anası onun əlini biləkdən tutaraq yardım etdi. Bir neçə gün sonra anası Banunun əlini dirsəkdən tutaraq səhifəni çevirməsinə yardım etdi. Qısa bir müddət ərzində Banu anasının digər səhifələrdən ayırdığı səhifələri sərbəst şəkildə çevirməyə başladı. Anası Banunun səhifələri çevirməsini təmin etmək üçün "barmağınla itələ" kimi şifahi ipuclarından və ya nümunə göstərmək kimi metodlardan istifadə etdi.

İkincü nümunəmizdə isə, üç yaş yarımlıq Kənan leqo taxmağı öyrənirdi. Böyük bacılarını leqo taxarkən görmüşdü, amma özü də bu işi görmək istədikdə çətinliklə üzləşmişdi. Anası Kənanın iki əlini tutaraq, iki leqo parçasını bir-birinə taxdırdı. Kənan nə qədər güc tətbiq etməli olduğunu anlayınca, anası Kənanın əllərini tutdu və leqo parçalarını bir-birinə yaxınlaşdırdı, amma taxmaq üçün çox güc tətbiq etmədi. Kənan bir az ustalaşdıqca anası onun yanında oturdu və lazım olduqca, Kənanın əllərini eyni səviyyədə saxlamasını təmin edəcək qədər yüngül toxunuşlarla kömək etdi. Bunu edərkən də "çalış ki, əllərin titrəməsin" deyərək daha yavaş və diqqətli olmalı olduğunu xatırlatdı. Qısa bir müddətdə Kənanın leqo taxarkən ehtiyacı olduğu yeganə yardım arabir xəbərdarlıq edilməkdən ibarət oldu.

***Vasitələri uyğunlaşdırmaq***

Uşağın bir tapşırığı sərbəst şəkildə özünün yerinə yetirməsini asanlaşdırmağın digər yolu materiallarda bəzi dəyişikliklər etmək və ya tapşırığı asanlaşdıran yollar tapmaqdır. Bu metod xüsusilə fiziki yardımdan narahat olan və müstəqil olmağı sevən uşaqlar üçün olduqca əhəmiyyətlidir.

Məsələn, Banunun anası kitabın karton səhifələrinin bir-birlərindən bir az aralı dayanması üçün səhifələrin kənarlarına yapışdırıcı sürtüb qurudaraq onların üzərində qabarcıqların əmələ gəlməsini təmin edə bilər. Kənanın anası isə leqolarla deyil, daha böyük hissələrdən ibarət "Duplo" oyunu ilə işə başlaya bilərdi. Qaşığın saplaq hissəsi parça və ya başqa material ilə sarılsa, onu tutmaq daha asan olar. Yaxud da diş məcununun qapağı çox sıx bağlanmasa, əlavə yardıma ehtiyac olmaz. Bu və bunun kimi tənzimləmələrdə öz xəyal gücünüzdən istifadə etməlisiniz.

***Uşaq reaksiya verdikdən sonra siz nə etməlisiniz?***

Uşaq ondan tələb olunan tapşırığı yerinə yetirdikdən və ya ən azından buna cəhd etdikdən sonra atmalı olduğunuz addım bir söz ilə ifadə oluna bilər: MÜKAFATLANDIRMA.

Mükafatlandırma tədrisin ən əsas prinsipidir və bütün tədris proseslərində istifadə olunur.  Mükafatlandırma yerinə yetirilən bir tapşırığın təkrarlanması ehtimalını artıran bir faktordur. Davranışın özünü insan mükafatlandırılmağa layiq bilirsə və ya davranışın sonunda mükafatlandırılmalı vəziyyət ortaya çıxırsa, o davranışın gələcəkdə də təkrarlanma ehtimalı artır.

Mükafatlandırma həyatın bütün mərhələlərində yer alır. Televizyonu sevdiyimiz üçün izləyirik. Bəzi şeyləri isə nəticəsində mükafatlandırıldığımız üçün edirik. Məsələn, bir işlə məşğul olmağın ən önəmli səbəbi onun müqabilində qazanacağımız maddi vəsaitdir. Bəzi şeyləri isə başqalarının diqqətini çəkmək üçün edirik. Hətta mənfi reaksiya doğursa belə, diqqət çəkmək bəzi insanlara mükafat kimi gəlir.

Analar övladlarının müsbət davranışlarını onların xoşuna gələn sözlər söyləməklə ya

da hərəkət etməklə mükafatlandırdıqlarını düşünürlər. Ancaq deyilən sözlərin və ya edilən hərəkətlərin həqiqətən qüvvətləndirici funksiyasının olub-olmadığına qərar vermək üçün mükafatlandırmanın nəticələrinə baxmaq lazımdır. Əgər bizim söylədiyimiz sözlər ya da elədiyimiz hərəkətlərin nəticəsində övladlarımız müsbət davranışlara daha çox yer verirlərsə, deməli, biz o davranışları həqiqətən də mükafatlandırmışıq. Əgər müsbət davranışlarda mükafatlandırma yoxdursa, demək ki, zənn etdiyimiz qədər qüvvətləndirici olmadığımızı düşünməliyik.

***Necə mükafatlandırmalıyıq?***

Ən sadə mükafatlandırma qaydası: Razı qaldığınızı ən təbii halınızla nümayiş etdirin və bu zaman süni olmayın!

Mükafatlandırma müxtəlif şəkillərdə həyata keçirilə bilər. İndi sizə bəzi mükafat nümunələri təqdim ediləcəkdir.

*a.Tərif*

Tərif ən təbii və ən asan tətbiq olunan mükafatlandırma formasıdır. Demək olar ki, hər kəsin tərifdən xoşu gəlir və hər kəs şifahi şəkildə kimisə tərifləyə bilər. Məsələnin ən gözəl tərəfi də odur ki, tərif ən təsirli mükafatlandırma vasitəsidir. Bir çox uşağın yeganə istəyi valideynlərindən tərif eşitməkdir.

Ancaq tərif metodundan çox istifadə etdikdə, bu, vərdişə çevrilə bilər və təsirli bir mükafat olmaqdan çıxar. Analar tərif məsələsində kreativ olmağa çalışmalıdırlar. Bu məsələdə bəzi tövsiyələr verilə bilər.

İstifadə etdiyiniz tərif sözlərini çeşidləndirin. Əgər uşağa gün ərzində 20 dəfə “afərin” deyirsinizsə, onun üçün bu sözün dəyəri azalacaq. İndi sizə “afərin” deməyin müxtəlif formaları təqdim olunacaqdır. Bunları ayrı kağızlara yazaraq hər zaman asanlıqla oxuya biləcəyiniz yerə asabilərsiniz ki, tez-tez oxuyub xatırlamağınız asan olsun.

Möhtəşəm, nə gözəl eliyirsən, bunu çox bəyəndim, çox gözəl, bacardın, gözlərimə inana bilmirəm, mükəmməl, çox yaxşı, buna heyran qaldım, nə qədər diqqətli eliyirsən, super, alqışlar, doğru elədin, çox gözəl görünür, bunu eləməyinə çox sevindim, çox gözəl iş gördün, hər dəfəsində daha yaxşı edirsən, fövqəladə, sənin də xoşuna gəldi!?, buna bax!, ən çox bu tərəfini bəyəndim, çox gözəl fikir, sənə 5, əla, sən bir dənəsən, oldu!, alındı və.s.

***Hansı davranışına görə övladınıza tərif dediyinizi bildirin.*** Uşağın hansı davranışının tərifə layiq olduğunu mütləq ona bildirin. Məsələn, uşağa yerə tökmədən yemək yemək davranışını öyrədirsinizsə və o, bunu bacarırsa, ona “yerə tökmədən yeməyini yedin, bunu çox bəyəndim” deməlisiniz.



***Tərifinizi vurğulayın.*** Balaca uşaqlar sözləri səsin tonu, mimikalar və jestlər ilə birlikdə qəbul edirlər. Ona görə də, uşağa bir tərif sözü deyərkən, onu tənqid edərkən və ya ona təlimat verərkən fərqli səs tonları və mimikalardan istifadə etməlisiniz. Bu məsələdə ifrata varmağınızı və ya süni olmağınızı tövsiyə etmirik. Ancaq bir az cəhd göstərməklə özünüzə xas tərif demə formaları tapa bilərsiniz.

Digər mükafatlandırma metodlarından istifadə etsəniz də, buna paralel şəkildə mütləq tərifə də yer verin. Digər mükafatlandırma metodlarına tərif öz təsirini göstərmədikdə üstünlük verin və bir an öncə tərifin müsbət reaksiya doğurmasına çalışın.

*b.Fiziki təmas*

Balaca uşaqların çoxu öpülməkdən, sığallanmaqdan, qucaqda atılıb-düşməkdən, qucaqlanmaqdan xoşları gəlir. Analar və uşaqlar arasında fiziki təmas çox təbii və hər iki tərəf üçün də çox xoş bir davranışdır. Ona görə də, mükafatlandırma əsnasında şifahi tériflə yanaşı, bolbol fiziki təmasa da yer verilməlidir.

*c. Fəaliyyət mükafatları*

Bu mükafatlar uşağın xoşuna gələn bir işi (və ya oyun kimi fəaliyyətlər) görməsinə icazə vermək üçün istifadə edilməlidir. Valideynlər üçün övladının sahib olduğu xüsusiyyətlərdən asılı olaraq, avtomobil gəzintisindən tutmuş su ilə oynamağa qədər onun xoşuna gələ biləcək hər cür fəaliyyətə verilən icazə burada mükafat kimi istifadə oluna bilər.

Əgər övladınız tərif sözlərindən və fiziki təmasdan kifayət qədər təsirlənmirsə, fəaliyyət mükafatlarından övladınızın sizin istədiyiniz şeyləri etməsi ehtimalını artırmaq üçün sistemli şəkildə faydalana bilərsiniz.

Məsələn, övladınız ilə çalışarkən ən sevdiyi oyuncağı görə biləcəyi yerə qoyub, tələb olunan tapşırıqları yerinə yetirdikdən sonra ona həmin oyuncaqla oynaya biləcəyini deyə bilərsiniz. Daha yuxarı yaşlı uşaqla çalışarkən oyuncağı əvvəlcədən göstərmək əvəzinə, ona şifahi şəkildə deməklə də kifayətlənə bilərsiniz. Fəaliyyət mükafatlarından istifadə edərkən buna paralel şəkildə tərifə də yer verməyi unutmayın. Övladınız ondan tələb olunanları yerinə yetirməyə başladıqda, fəaliyyət mükafatlandırmasını gedərək azaldın.

Tərif sözləri kimi fəaliyyət mükafatlarının da çeşidləndirilməsi vacibdir. Ən azından növbə ilə istifadə edə biləcəyiniz 2-3 seçiminiz olmalıdır.

*d. Simvol sistemi ilə mükafatlar*

Fəaliyyət mükafatlarının önəmli bir məhdudiyyəti var. Bu məhdudiyyət ondan ibarətdir ki, fəaliyyət mükafatlarını vermək üçün çox vaxt tədris seansı başa çatmalıdır. Uşaqlar mükafatın bir an əvvəl verilməsini istəyirlər. Bəziləri isə tədris seansında yerinə yetirdiyi ilk tapşırıqdan, hətta ilk cəhddən dərhal sonra mükafatını almaq istəyə bilər. Mükafatın təlimin sonunda veriləcəyini eşitdikdə isə tapşırığı davam etdirmək üçün həvəsdən düşə bilər. Simvol şəklində olan mükafatlar fəaliyyət mükafatlarının bu çatışmazlığını aradan qaldırır.

Simvol sistemi ilə mükafatların tək başına bir mənası olmayan, ancaq simvol toplanıldıqdan sonra fəaliyyət mükafatı ilə dəyişdirilə bilən bir əşyadır. Müasir cəmiyyətlərdə ən geniş yayılan simvol şəklindəki mükafat puldur. Siz də uşaqlarla çalışarkən simvol mükafat olaraq düymə, muncuq və s. kimi kiçik əşyalardan istifadə edə bilərsiniz. Tədris seansının gedişində uşaq hər dəfə müsbət reaksiya verdikdə və ya buna cəhd etdikdə ona bir simvol mükafat verə bilərsiniz.

Uşağa simvol sisteminin funksiyasını izah etmək üçün əvvəlcədən fəaliyyət mükafatlarını dəyər-dəyməzinə dəyişdirməlisiniz. Getdikcə uşaq daha çox fəaliyyətə qatılmağa haqq qazanması üçün ondan daha çox simvol (məsələn, on dənə) toplamasını istəyə bilərsiniz.

Simvollar tez-tez və asanlıqla verilə bildiyi üçün tədris prosesində səmərəli şəkildə istifadə olunmalıdır. Ancaq uşaq simvolların nə işə yaradığını dərk etməlidir. Ona görə də simvol mükafatlar yaşı çox az olan və ya inkişafdan çox geri qalan uşaqların tədrisində istifadə olunmamalıdır.

*e.Qida mükafatları*

Qidalardan mükafat kimi istifadə olunması olduqca həssas məsələdir. Bu zaman analar bu məsələlərdə diqqətli olmalıdırlar:

Mükafat olaraq qida verilməsi şirniyyat, vafli və çipsi kimi qida dəyəri aşağı olan məhsulların normadan artıq istiadəsinə gətirib çıxarmamalıdır. Bu məhsullar uşağın müsbət reaksiyasından sonra verilməlidir, ancaq bu, normalda verildiyindən daha çox olmamalıdır. Bundan başqa, uşaq mükafat olaraq verilən və çox sevdiyi dondurma, tort, pudinq kimi qidalardan uzun müddət uzaq tutulmamalıdır.

Əgər uşaqlar tərif sözlərindən lazım olan qədər təsirlənmirsə və simvolik mükafatlar da onu həvəsləndirmirsə, qidalardan mükafat kimi istifadə edə bilərsiniz. Bəzi uşaqlar bəzi qidaları əldə etmək üçün valideynlərinin sözlərinə qulaq asmağa hazırdırlar. Qidalardan mükafat kimi istifadə edərkən aşağıdakı tövsiyələri nəzərə almağınızı təklif olunur:

***Qida mükafatı sistemini məqsədinizə çatmaq üçün bir vasitə kimi istifadə edin.*** Qidalar uşaqların yeni bacarıqlara yiyələnməsi üçün bir vasitə kimi istifadə edilməlidir. Qida mükafatları verərkən, eyni zamanda tərif sözlərindən də istifadə edilməlidir. Getdikcə yeməli mükafatların verilməsini azaltmaq lazımdır.

***Mükafat olaraq təsiri olacaq ən az miqdara üstünlük verin.*** Məsələn, mükafat kimi şokalad verirsinizsə, kiçik şokolad hissələrindən istifadə edilməsi daha məqsədə uyğunudur.

Qida mükafatlarının tətbiqinə müəyyən vaxt və ya tapşırıqlara görə məhdudiyyət qoyun. Məsələn, yalnız masa ətrafında olan tədris seansından sonra qida mükafatları veriləbilər. Bundan başqa, hər gün ən az bir tədris seansını elə maraqlı hala gətirin ki, arxasınca qida mükafatının gələcəyini bilsə də, o işi sizinlə birgə görmək uşaq üçün mükafat kimi olsun.



***Nə zaman mükafatlandırmalısınız?***

Ümumlikdə mükafatlandırmanın necə aparılacağı məsələnin bir tərəfini, nə zaman aparılacağı isə digər tərəfini təşkil edir.

Mükafatlandırma ana-övlad münasibətlərinin daimi və özü-özlüyündə formalaşan bir parçası olmalıdır. Ancaq bəzi vəziyyətlər mükafatlandırmanın müəyyən bir qaydalara əsaslandırılmasını vacib edir.

Bir bacarığın yeni öyrədilməyə başlanıldığı zamanlarda uşağın hər uğurlu addımında mükafatlandırın. Hətta uğursuz olduğu addımlarda da göstərdiyi cəhdlərə görə mükafatlandırın. Uşaq tapşırığı sərbəst şəkildə etməyə başladıqdan sonra mükafatları seyrəkləşdirin. Daha sonra isə mükafatlandırmanı arabir tətbiq etməyə başlayın. Məsələn, ikinci, beşinci, altıncı, səkkizinci tapşırıqları mükafatlandırmaq kimi. Mükafatlandırma cədvəlinizin uşaqların təxmin edə bilməyəcəyi şəkildə tərtib olunmasına diqqət edin. Sabit və vaxtaşırı mükafatlandırma aparmayın. Bu məsələdə qeyri-sabitlik sabitlikdən daha effektlidir.

Fəaliyyət, simvol və ya qida şəklində mükafatlandırma sistemlərindən istifadə edirsinizsə, uşaq bu mükafatlar olmadan da yeni bacarıqları həvəslə mənimsəməyə başladığında, mükafatlandırmanı azaldın. Ancaq tərif mükafatlarını daim istifadə edin. Arabir tərif sözləri ilə yanaşı, digər mükafatları da verin. Ancaq digər mükafatlardan istifadəni tədricən seyrəkləşdirin.

***Bir bacarığın tədrisi nə qədər müddət davam etməlidir?***

Strukturlaşdırılmış tədris seanslarında hər öyrədilən bacarıq üçün hər bir seansda bir tapşırığa beş dəfə cəhd göstərilməsini tövsiyə edirik. Tədrisi uşağın o tapşırığı bir seansda beş cəhdin hamısında (100 %) doğru yerinə yetirənə qədər davam etdirin. Əgər beşdə-beşlik nəticə ala bilmirsinizsə, uşaq iki seansda ard-arda beşdə-dörd (80%) nəticə göstərdiyində o bacarığın tədrisini dayandıra bilərsiniz. Ancaq bu məsələdə bəzi istisnalar ola bilər.

Gündəlik həyatda yeri gəldikcə öyrədilməsi münasib olan bacarıqlar üçün tədrisə başlamazdan əvvəl hədəflədiyiniz standart haqqında bir fikriniz olmalıdır. Beləliklə, bacarığın tam olaraq mənimsənildiyini anlayıb növbəti mərhələyə keçə bilərsiniz.

## DAVRANIŞ PROBLEMLƏRİNİN ÖHDƏSİNDƏN GƏLMƏ

Autizmli fərdlərin davranış problemləri valideynləri və digər ailə üzvlərini narahat edən əsas məsələlərdən biridir. Ev şəraitində uşaqların yeni bacarıqlar öyrənməsinə mane olan, şəraitə uyğunlaşmasını çətinləşdirən, özünə, başqasına və ya ətrafına zərər vuran davranışları ola bilər. Bu davranışlar uşaqlar ilə işləməyinizi, ona yeni bacarıqlar öyrətməyinizi çətinləşdirərək

onlara nələrsə öyrətmək üçün sizi həvəsdən sala bilər.

Davranış problemi deyildikdə uşağın özü ya da başqası üçün maneələr törədən şeylərlə məşğul olması nəzərdə tutulur. Uşağın məşğul olduğu şeylər onun öyrənməsini çətinləşdirdi-yi, başqalarının işlərinə mane olduğu və ya uşağı başqalarından uzaqlaşdırdığı üçün problem olaraq qəbul edilir. Davranış problemləri nə qədər ağır olursa-olsun, uşağın özündən deyil, davranışlarından qaynaqlanmaqdadır.

Davranış problemləri termini yalnız uşağın öyrənə biləcəyi davranışlar üçün istifadə olunmalıdır. Çox ağır olduğu üçün əlindəki vazanı daşıya bilməyib yerə düşürən və sındıran uşağın davranış probleminin olduğunu deyə bilmərik. Yaxud da anası ilə oynayarkən barmağını bilmədən anasının gözünə soxan uşağın davranış probleminin olduğunu da deyə bilmərik. Çox hərəkətli bir uşağın problemli bir davranışı bir neçə dəfə təkrarlaması belə, davranış problemi sayıla bilməz. Bir davranış uşağa o davranışı eləməməsi söyləndiyi və uşaq da o davranışı təkrarlamama bacarığına sahib olduğu halda, təkrarən edirsə, problemli davranış sayılır.

Əgər bir davranışın problemli olub-olmadığına qərar verməkdə çətinlik çəkirsinizsə, aşağıdakı suallar işinizi asanlaşdıra bilər:

- Bu davranış indi və ya gələcəkdə uşağa və ya ətrafındakılar üçün bir təhlükə meydana gətirə bilərmi?
- Bu davranış ailədəki digər uşaqlar üçün qoyduğunuz kriteriyalar ilə üst-üstə düşürmü?
- Bu davranış uşağın nəsə öyrənməsinə mane olurmu?
- Bu davranışı uşağın heç vaxt etməməyini istəyirikmi?

Valideynlər autizmli övladlarından gözlədiyi davranışları öyrətmək üçün bu mərhələlərə riayət etməlidir.:

1. Məqsədlərinizi müəyyənləşdirin.
2. Övladınızın ətrafındakı hər kəsin bu məqsədləri mənimsəməsini təmin edin.
3. Övladınız arzu olunmayan davranışları etdiyində onu bundan yayındıracaq reaksiyanızın necə olacağını müəyyənləşdirin. Göstərəcəyiniz reaksiya övladınızın eyni davranışı təkrarlamaması üçün yayındırıcı bir cəza olmalıdır. Övladınızı yayındırmaq üçün effektiv ola biləcək ən yüngül fəaliyyəti seçməyə çalışın. “Cədvəl 1”də ən yüngüldən ən ağıra doğru sıralanmış belə fəaliyyət nümunələri yer alır. Bu cədvələ diqqətlə baxın.
4. Yayındırıcı reaksiyanı arzuolunmaz davranışdan dərhal sonra göstərin. Balaca uşaq-ların yaddaşları məhduddur. Bu səbəbdən davranışdan dərhal sonra göstərilməyən re-aksiya təsirsiz və başqarışdıran ola bilər. Məsələn, əgər böyük övladınız həyətdən mətbəxə gəlib “Ana, Bahar şlanqla üstümü islatdı” desə və övladınızın üstü qurumağa başlayıbsa, Bahara reaksiya vermək artıq gecdir.
5. Ardıcıl olun. Yayındırıcı reaksiyanı övladınız arzuolunmaz davranışı hər dəfə təkrarlayanda göstərin və bunu hər dəfə mümkün qədər eyni tərzdə edin.
6. Arzuolunmaz davranışların əvvəlcə artıb, sonra azaldığını gözləyin. Övladınız onun davranışı ilə bağlı siz yeni bir şey yoxlamağa başladığınızda sizi sınayacaq. Baxaq, onun bu davranışlarına nə qədər müddət laqeyd qala biləcəksiniz? Ana görməzliyə vurma metodundan istifadə edərkən içindən “maraq göstərməyəcəyəm, maraq göstər-məyəcəyəm …” deyə təkrarlayır. Uşaq isə “diqqətini çəkəcəyəm” deyə cəhd göstərir. Əgər siz böyük bir israrla maraq göstərməməyə davam etsəniz, arzuolunmaz davra-nışlar tədricən azalacaq. Tətbiq etdiyiniz metodun səmərəsini görməyiniz iki həftə sürə bilər. Bu səbəbdən bu metodu – sürpriz problemlər çıxmasa – iki həftəyə qədər davam etdirməlisiniz. Əgər iki həftədən sonra arzuolunmaz davranışda bir azalma olmayıbsa, metodunuzu dəyişdirə bilərsiniz. Unutmayın ki, tez-tez dəyişdirilən metod fayda əvəzinə zərər gətirir.
7. Övladınızın müsbət davranışlarını mükafatlandırın. Müsbət davranışları mükafatlandırmaq ən az arzuolunmaz davranışları yayındırmaq qədər önəmlidir. Amma əgər diqqətinizi övladınızın arzuolunmaz davranışları üzərində toplamısınızsa, onun müsbət davranışlarını nəzərdən qaçıra bilərsiniz. Övladınızın müsbət davranışlarının fərqinə varmaq və mükafatlandırmaq üçün cəhd göstərin. Övladınız bilməlidir ki, sizin xoşunuza gəlməyən yalnız onun davranışlarıdır, onun özü deyildir.
8. Övladınıza arzuolunmaz davranışına alternativ olaraq edə biləcəyi müsbət davranışlar öyrədin. Bu məsələyə daha əvvəl də toxunmuşduq. Övladınıza müsbət davranışlar qazandırmağa çalışın. Müsbət davranışların aşılanmasını, mümkündürsə, davranış problemlərinin tez-tez baş verdiyi vəziyyətlərdə reallaşdırın.
9. Uşağın ətrafındakı hər kəsi davranış dəyişdirmə proqramına daxil edin. Uşaqla ünsiy-yətdə olan hər kəsi arzuolunmaz davranışların yayındırılması və müsbət davranışların mükafatlandırılması prosesinə dəvət edin. Məsələn, siz övladınıza qarşı “görməzliyə vurma” metodunu tətbiq edirsinizsə, atasının ona yaxından maraq göstərməsinə icazə verməyin.
10. Müsbət dəyişikliyin qeydiyyatını aparın. Ən azından ilk iki həftə arzuolunmaz davranışların və öyrətməyə çalışdığınız müsbət davranışın gündə neçə dəfə təkrarlandığını qeydə alın. Bunu eləməsəniz, davranışların müsbət yöndə dəyişib-dəyişmədiyindən tam əmin ola bilməzsiniz. Əgər qeydiyyat aparmağa davranış dəyişikliyi proqramını tətbiq etməyə başlamazdan bir neçə gün əvvəl start versəniz, proqramın səmərəliliyini daha asan görə bilərsiniz. Apardığınız qeydlərə baxaraq proqrama davam etməyə və ya onu dəyişdirməyə qərar verə bilərsiniz.

**Əhval-ruhiyyənizi yüksək tutmalısınız!**

Yuxarıda qeyd etdiyimiz prinsipləri əskiksiz yerinə yetirmək ancaq super ana və ya atanın bacara biləcəyi işdir. Elə bir ana və ya atanın yer üzərində olmayacağına görə siz də bəzi qaydalara riayət etməkdə çətinlik çəkə bilərsiniz. Çox təcrübəli analar, hətta müəllimlər üçün də davranış problemləri ilə məşğul olmaq asan iş deyildir. Bəzən işlər planlaşdırdığımız kimi getməyə bilər. Bu məqamda siz sadəcə olaraq səbrlə və israrla sonda qalib gələcək tərəfin siz olacağınıza inanmaqda davam etməlisiniz.

Övladınızın davranış problemləri ilə məşğul olduğunuz günlərdə ailənizin və dostlarınızın daha çox dəstəyinə ehtiyacınız ola bilər. Yaxud da dincəlməyiniz üçün özünüzə əlavə vaxt ayırmağa ehtiyac duya bilərsiniz. Kömək istəməkdən və ya özünüzə vaxt ayırmaqdan çəkinməyin. Unutmayın ki, bunları övladınız üçün, onunla daha yaxşı maraqlanmağınız üçün edəcəksiniz.

Övladınızın əldə etdiyi hər bir irəliləyiş üçün – kiçik bir irəliləyiş olsa belə - özünüzü mükafatlandırmağı unutmayın. Övladınızın davranış problemlərini azaltmaq sizdən çox onun xeyrinədir. Bu, ona daha çox dosta sahib olmaq, daha çox bacarığa yiyələnmək və müsbət davranışlar sərgiləməkdən daha çox zövq almaq fürsəti yaradacaqdır.

İndi isə növbədə davranış problemlərindan yayınmağın yolları var.

**Davranış problemlərindən yayınmaq**

Əgər övladınızda davranış problemləri müşahidə olunmursa, o zaman normal həyatınıza davam edə bilərsiniz. Bu vəziyyətdə ehtimal olunur ki, yuxarıda qeyd olunan qaydaların bir çoxuna riayət edirsiniz. Bu qaydaların çoxu valideynlərin zaman-zaman sərbəst şəkildə tətbiq etdikləri metodlardır.

Əgər övladınızda gördüyünüz bir neçə dəcəlliyin böyüyərək davranış problemi halına gəlməsini istəmirsinizsə, aşağıdakı tövsiyələrə riayət edin:

***Müsbət davranışları mütləq görün və mükafatlandırın.*** Əgər övladınız təkbaşına gözəl şəkildə oynayarkən ona "afərin" demək kimi bir vərdişiniz yoxdursa, belə bir vərdişə yiyələnmək ilk vaxtlar sizin üçün çətin gələ bilər. Amma bir dəfə öyrəşdikdən sonra bunu avtomatik edəcəksiniz. Unutmayın ki, davranış problemlərinin çoxu kifayət qədər diqqət və qayğı görməməkdən irəli gəlir. Əgər atanın gözlərini qəzetdən çəkməyin və ya ananın başını başqa məşquliyyətdən qaldırmağın yeganə yolu dəcəllik etməkdirsə, uşaq bu dəcəlliyi edəcəkdir. Halbuki uşaq səssizcə oynayarkən ata arada başını ona çevirib "leqolarla düzəltdiyin ev nə gözəl olub, bunu kimin üçün düzəltmisən?" desə və ya ana toxuduğu ipliyi bir kənara qoyub bir neçə dəqiqəliyə oğlunun yanında otursa, uşağın dəcəllik etməyə ehtiyacı qalarmayacaqdır.

***Açıq, sadə və ardıcıl qaydalar qoyun.*** Övladınızın nəyə icazə verilib nəyə icazə verilmədiyinə dair şübhələrinin olmamasını təmin edin. Zamanla övladınız qaydaların nə dərəcədə önəmli olduğunu yoxlamaq üçün sizi sınağa çəkə bilər. Bu vəziyyətlərə hazır olun və övladınız qaydaları yerinə yetirmədiyi zaman hansı reaksiyanı verəcəyinizi əvvəlcədən müəyyənləşdirin. Qaydalara uyğun davrandığında isə özü ilə qürur duyacağı şəkildə onu mükafatlandırın.

***Müsbət təlimatlar verin.*** Hərəkətli bir övladınız varsa, bütün gününüz "ona toxunma", "burada qaçma", "elə eləmə", "nə badə", "xeyr" kimi mənfi təlimatlar verməklə keçəcəkdir. Əgər bu cür xəbərdarlıqları çox tez-tez istifadə edirsinizsə, bir müddət sonra, şübhəniz olmasın ki, bunlar övladınızın bir qulağından girib digərindən çıxacaqdır. Təlimatlarınızı müsbət ifadələrə çevirməyə çalışın. "Buna toxun", "bura bas", "təbii ki", "bəli" kimi ifadələrə keçid edin. "Əsla" və "xeyr"lərinizi çox önəmli durumlara saxlasanız, təsirli olma ehtimalı daha yüksək olacaqdır.

***"Dəcəllik" etdiyində göstərəcəyiniz reaksiyaları müəyyənləşdirin.*** Ən yüngül dəcəllikdə ən ağır reaksiyanı göstərsəniz, reaksiyalarınızın təsir imkanları azalacaq. Dəcəllik anında göstərəcəyiniz yayındırıcı reaksiyaları ən yüngüldən ən ağıra doğru sıralayaq:

- Əşyaların yerini dəyişdirmək. Bəzi əşyaların yerini dəyişdirərək, bəzi dəcəlliklərin qarşısını almaq mümkündür. Məsələn, övladınız hələ ensiklopediya ilə öz kitabı arasındakı fərqi, yaxud da oyuncaq fotoaparat ilə əsl fotoaparat arasındakı fərqi bilmirsə, bu əşyalardan bəzilərini gizlətmək olar.
- **Görməzliyə vurmaq.** Əgər övladınızın elədiyi dəcəllik onun ətrafındakı insanlarda hansısa reaksiya meydana gətirmirsə, bir neçə dəfə təkrarladıqdan sonra, o, bu dəcəlliyindən bəlkə də əl çəkəcəkdir.
- **Alternativ təklif etmək.** Övladınız qeyri-münasib bir hərəkət eləsə, ona münasib olan davranış formasını təklif etsəniz, digərindən əl çəkəcək. Məsələn, parça kuklasını çimizdirmək istəyən uşağa plastik kuklanı çimizdirməyi təklif edə bilərsiniz.
- **Konkret olaraq "xeyr".** Əgər sərt və qərarlı şəkildə "xeyr" desəniz və övladınız eləməkdə olduğu hərəkətə fasilə versə, dərhal başqa bir şeyə maraq göstərməyini təmin etməyə çalışın. "Xeyr"i təkrarlamaqdan çəkinin, çox eşitmək vecsizliyə səbəb olur.
- **Şifahi xəbərdarlıq.** Övladınıza səhvini düzəltmək imkanı verin. "Bir az əvvəl atan nə demişdi?" və ya "Bıçaqlar ilə bağlı qaydamız nə idi?" kimi. Belə bir xəbərdarlıq ən azından uşağa elədiyi hərəkəti yenidən dəyərləndirmək fürsəti verir.
- **Məhrum etmək.** Oyuncağı əlindən almaq kimi uşağı hansısa bir əşyadan və ya oyundan məhrum etmək xüsusilə yaşca böyük uşaqlarda istifadə olunmalıdır.
- **Fasilə.** "Cədvəl 1"də izah olunub.
- **Hər zaman.** Qaydalarla bağlı mübahisə etməkdən, qışqırmaqdan, fikrinizi dəyişdirməkdən, yarı yolda qalmaqdan və qisas almaqdan (sən məni vursan, mən də səni vuraram)

çəkinin. Çünki bunlar problemi artıra bilən davranışlardır.

***Övladınıza onu sevdiyinizin, lakin elədiyi bəzi hərəkətləri sevmədiyinizin mesajını verin.*** Övladınıza "mən səni artıq sevmirəm, get, öz otağında otur" demək ilə "fincanı sındırdığın üçün gedib otağında oturacaqsan" demək arasında çox böyük bir fərq var.

**Davranış dəyişdirmədə riayət edilməsi vacib olan 10 qayda**

Övladınızın davranışları ilə əlaqədar olaraq müəyyənləşdirdiyiniz məqsədlərə onun riayət etməsinə nail olmağın yollarını qısaca aşağdaki kimi qeyd edə bilərik:

1. Məqsədlərinizin nələr olduğunu bilin.
2. Övladınızla ünsiyyətdə olan hə[1]r kəsin də bu məqsədləri bilməsini təmin edin.
3. Arzuolunmaz davranışın nəticəsində nə olacağına qərar verin.
4. Arzuolunmaz davranışdan sonra müəyyənləşdirdiyiniz nəticənin dərhal ortaya çıxmasını təmin edin.
5. Ardıcıl olun.
6. Arzuolunmaz davranışın əvvəlcə artıb sonra azalmasını gözləyin.
7. Övladınızın müsbət davranışlarını mükafatlandırın.
8. Övladınıza problemli davranışlarını düzəltməyin yollarını göstərin.
9. Davranış dəyişdirmə proqramına uşağın ətrafındakı hər kəsi daxil edin.
10. İrəliləyişlərin qeydiyyatını aparın.



**Cədvəl 1. Arzuolunmaz davranışlardan sonra göstərilə biləcək yayındırıcı reaksiyalar**

Arzuolunmaz davranışlardan sonra etməli olduğunuz və yayındırıcı reaksiyalar olaraq adlandırdığımız bəzi metodlar var. Aşağıda bunlar sırayla verilib:

***Görməzlikdən gəlmək***

Arzuolunmaz davranış uşağın özünə və ətrafına zərər vurmursa, sadəcə diqqət çəkmək məqsədilə edilirsə, görməzlikdən gəlmək bu davranışın azaldılması üçün təsirli bir yol ola bilər.

Övladınızla fiziki olaraq təmasda olmaq, onu qaldırmaq, daşımaq məcburiyyətində olsanız belə, onunla göz təması qurmamağa, danışmamağa çalışın. Yəni ondan küsdüyünüzü hiss etdirin. Görməzlikdən gəlmək xüsusilə diqqət çəkməyə hesablanmış davranışlarda çox effektiv ola bilər.

Bəzi vəziyyətlərdə görməzlikdən gəlmək mümkünsüz ola bilər. Məsələn, əgər övladınız kiçik qardaşını çimdikləyibsə, qardaşı ağlamaya bilməz. Ona görə də, belə bir davranışdan sonra fərqli bir yayındırıcı reaksiya ortaya qoymaq lazımdır.

***Övladınızın sahib olduğu bir şeyi geri almaq***

Bu yayındırıcı reaksiya daha çox böyük uşaqlarda istifadə olunur. Məsələn, uşağın oynadığı oyuncaq əlindən alına bilər, yaxud da izləməkdə olduğu TV söndürülə bilər. Ancaq bu reaksiya arzuolunmaz davranışdan dərhal sonra göstərilməlidir və uşağın üçün belə bir reaksiyaya məruz qaldığını dərk etməsi təmin olunmalıdır. Uşaq arzuolunmaz davranışına son verən kimi ondan alınan əşya dərhal özünə qaytarılmalıdır.

***Fasilə***

Uşaq arzuolunmaz davranışından dərhal sonra beş dəqiqə kimi qısa müddətə o anda olduğu yerdən çıxarılaraq təkbaşına buraxılır. Uşağa nə üçün çölə çıxarıldığı izah edilir, amma başqa bir açıqlama verilməməlidir. Fasilənin uşağın qorxu keçirməsinə gətirib çıxarmamasına xüsusilə diqqət yetirmək lazımdır. Məsələn, əgər uşaq otaqda tək qalmaqdan qorxursa, beşiyinə qoyula bilər, amma otağının qapısı açıq saxlanılmalıdır. Fasilə müddətində övladınızın ağlamalarına, qışqırmalarına fikir verməyib, sakitləşdikdən sonra yanına gedib əvvəlki yerinə qayıtması təmin edilməlidir.

Fasilə reaksiyasının mənfi tərəfi isə ondan ibarətdir ki, əyləncəli bir işə çevrilə bilər. Xüsusilə də digər uşaqların bu prosesə müdaxilə etmələri cəza kimi tətbiq olunan davranışı effektiv olmaqdan çıxarar. Belə vəziyyətlərdə fasilə cəzasından imtina edib başqa şey fikirləşmək lazımdır.

Əgər planlaşdırdığınız kimi tətbiq edə bilirsinizsə, fasilə cəzasını iki həftə boyunca hər arzuolunmaz davranışdan sonra tətbiq edə bilərsiniz. Bu müddət başa çatdıqdan sonra arzuolunmaz davranışda azalma olduğunu görsəniz, fasilə cəzası işə yarayır deməkdir; ondan istifadəyə davam edin. Əgər arzuolunmaz davranışda azalma yoxdursa, başqa bir yayındırıcı metodu yoxlamalısınız.

## MOTORİKA BACARIQLARI





**BACARIQLAR 1: Taxta kubikləri deşikdən içəri atma**
Uşaq kubikləri deşikdən işəri atır.



**MATERİALLAR:**

- Nazik düzbucaqlı və ya kub şəklində bloklar
- İki plastik qab və ya qutu. Onlardan biri qapaqlı və kəsilmiş olmalıdır (kəsik sadəcə blokun keçəcəyi ölçüdə olmalıdır)
- Ayaqqabı qutusu və qabları qoyacaq böyüklükdə kəsilmiş iki deşikli qapaq

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Əl-göz koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Qutunun sol tərəfinə iki fərqli kubiklər (məsələn, kub və dairə) qoyulsa və sağ tərəfdə bu kubiklərə uyğun gələn iki deşik açılsa, bu tapşırıq daha da genişləndirilə bilər. Uşaqlar doğru kubikləri seçib ona uyğun gələn şəkildə kəsilmiş qapaqdan içəri atmalıdırlar.

İkinci qabdan istifadə oluna bilər. Fərqli rənglərdə eyni kubiklər istifadə oluna bilər. Hər qabın qapağı iki fərqli rəngdə olan kubiklərə uyğunlaşdırıla bilər. Uşaqlar bu şəkildə kubikləri rənglərinə görə ayırıb onları uyğun qapaqdan içəri ata bilərlər.

**BACARIQ 2: Paltar sancaqlarını qutudan çıxarıb deşiyə atma**

Uşaq paltar sancaqlarını qutudan çıxarıb deşiyə atır.



**MATERİALLAR:**

- 10-15 paltar sancağını (uşağın öhdəsindən gələcəyi səviyyə və bacarığına görə rəqəm dəyişə bilər)
- Paltar sancaqlarını ata bilmək üçün üstündə kiçik bir deşik açılmış bir qutu.
- Bütün materialların bir yerdə saxlanılacağı ayaqqabı qutusu.

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika (baş və işarə barmaqla tuta bilmək)
- Əl-göz koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Əgər uşaqlar iki barmaqdan istifadə edərək, qutunun kənarından paltar sancaqlarını çıxara bilmirlərsə, bu sancaqlar başqa qabda saxlanıla bilər. Uşaqlar bu şəkildə sancaqları bu qabdan götürüb digər deşikli qutuya ata bilərlər.



**BACARIQ 3 : Balaca topları deşiyə atma**

Uşaq deşikdən içəri kiçik topları atır.



**MATERİALLAR:**

- Kiçik toplar (bu toplar duyğusal reaksiya oyandırması üçün nahamar səthli və ya naxışlı olmalıdır).
- Bir qutu və qapağında “X” formasında kəsik.
- Bütün materialları bir yerdə saxlamaq üçün bir sini və ya qutu.

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Əl-göz koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Plastik qapağın üzərindəki kəsiyi “X” formasına salmaq uşağa toxunma duyğusu qazandırır. Uşağın topu bir az möhkəm itələməsi lazım gəlir və uşaqların çoxunun barmaqlarının “X” formasına girməsindən xoşu gəlir.

**BACARIQ 4: Taxta kubikləri qutudan çıxarma və deşiyə atma**

Uşaq kubikləri qutudan dartıb çıxarır və deşikdən içəri atır.



**MATERİALLAR:**

- Arxalarına yapışqan vurulmuş kubiklər.
- Üzərində kub şəklində bir deşik olan ayaqqabı qutusu və deşiyin üstündə yapışqanlı hissə

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşağın diqqətinə və motivasiyasına görə (plastik oyuncaq, zınqırov və s.) hər hansı bir əşya kubukların əvəzinə istifadə oluna bilər.



**BACARIQ 5: Oyuncaq parabüzənləri qutudan dartıb çıxarma**

Uşaq arxası yapışqanlı plastik parabüzənləri qutudan dartıb çıxarır və qabın içinə atır.



**MATERİALLAR:**

- Yapışqanlı kiçik parabüzən oyuncaqlar və ya arxası yapışqanlı plastik əşyalar.
- Parabüzən oyuncaqları içində saxlamaq üçün kiçik bir qab.
- Bir ayaqqabı qutusu, qapağın sol tərəfində kiçik yapışqanlı hissələr. Qapağın sağ tərəfində qabı bərkitmək üçün bir boşluq.

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqlar bu tapşırığı tərsinə yerinə yetirə bilərlər. Parabüzən oyuncaqları qutudan götürüb sol tərəfdəki yapışqanlı hissəyə yapışdıra bilərlər. Bu tapşırıq birə-bir qarşılaşdırma və kiçik motorika bacarıqlarında da faydalıdır. Qutunu çevirməyi unutmayın ki, uşaq soldan sağa doğru çalışa bilsin. Bəzi uşaqlar ilə bu tapşırığı tərsinə yerinə yetirərkən başqa material və ya yeni qutu düzəltmək lazım gələ bilər.

**BACARIQ 6: Böyük dama daşlarını deşiyə atma**

Uşaq böyük dama daşlarını deşikdən içəri atır



**MATERİALLAR:**

- Dama daşları
- Dama daşlarını qoymaq üçün bir qutu.
- Ayaqqabı qutusu və qutunun üstündə dama daşları ilə eyni olan bir kəsik

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Fərqli böyüklükdə olan dama daşlarından da istifadə edə bilərsiniz. Bu, fərqli ölçüləri anlama, eyni zamanda deşiyə atma və kiçik motor bacarıqlarını çalışmasını təmin edər. İki deşik açmağı unutmayın. Biri sadəcə kiçik damaların, digəri də böyük damaların sığacağı ölçüdə olsun. Diqqətli olun, çünki uşaq kiçik damaları da böyük deşikdən içəri ata bilər, tapşırığı doğru yerinə yetirib-yetirmədiyinə nəzarət etməyiniz çətinləşər.



**BACARIQ 7: Maşınları yerinə park etmə**

Uşaq oyuncaq maşınları yerinə park edir.



**MATERİALLAR:**

- Altlarına yapışqan vurulmuş oyuncaq maşınlar.
- Oyuncaq maşınları içinə yığmaq üçün bir qutu.
- “Parkinq yerləri” üçün üzərinə yapışqanla bərkidilmiş ayaqqabı qutusu (yol şəklində dizayn edilə bilər)

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Motorika
- Birə-bir eyniləşdirmə

**FƏRQLİ TƏTBİQLƏR:**

Oyuncaq maşınların rənglərinə uyğun gəlməsi üçün üstü rənglənmiş yapışqanlı hissələr. Beləliklə, uşaqlar maşını eyni rəngdəki dayanacaq yerləri ilə eyniləşdirə bilər.

**BACARIQ 8: Kiçik qutuları bir araya gətirmə və deşiyə atma**

Uşaq kiçik qutuların qapaqlarını yerinə taxır və bir deşikdən içəri atır.



**MATERİALLAR:**

- Qutuları qoymaq üçün kiçik bir qab
- Qutuların qapaqlarını qoymaq üçün kiçik bir qab
- Kiçik qutuların altına bərkidilmiş yapışqanlı hissə
- Qutuları yapışdırmaq üçün ayaqqabı qutularının üzərinə bərkidilmiş yapışqanlı zolaqlar və qapaqları taxılmış qutuları içəri atmaq üçün bir deşik

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- İki mərhələli təlimatlar

**FƏRQLİ TƏTBİQLƏR:**

Üçüncü mərhələ olaraq uşaqdan qapaqları bağlamazdan və ayaqqabı qutusunun üzərindəki deşikdən içəri atmazdan əvvəl qutulara pambıq doldurmasını istəyə bilərsiniz.



**BACARIQ 9: Dama daşlarını deşiyə atma**

Uşaq dama daşlarını fərqli formalarda olan deşiklərdən içəri atır.



**MATERİALLAR:**

- 3 fərqli rəngdə olan dama daşları və onları içərisində saxlamaq üçün bir qab
- Bir ayaqqabı qutusu və içinə qəbzləri atmaq üçün üstündə fərqli istiqamətlərdə kəsilmiş deşiklər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Baş və işarə barmaqları ilə tutma
- Göz-əl koordinasiyası
- Əgər daşları rənglərinə görə ayırıb uyğun rəngdəki deşiklərdən içəri ata bilərsə, rəng eyniləşdirilməsi çalışıla bilər.

**FƏRQLİ TƏTBİQLƏR:**

Bütün ağ rəngli daşların şaquli, mavi daşların isə üfiqi qoyulduğuna nəzarət etmək üçün qutunun içərisinə bir mexanizm düzəldə bilərsiniz. Ancaq bu tapşırıq rəngləri fərqləndirmək üçün deyil, daha çox motorika bacarıqlarını inkişaf etdirmək üçündür. Uşaq hər üç deşiyi motorika bacarığı üçün istifadə edəcəyindən hansı rəngin hansı deşiyə düşdüyünün önəmi yoxdur.

**BACARIQ 10: Xırda dəmir pulları kassaya atma**

Uşaq xırda dəmir pulları kassaya atır.



**MATERİALLAR:**

- Xırda dəmir pullar (plastik də ola bilər)
- Xırda pulları içərisində saxlamaq üçün kiçik bir qab
- Bir kassa və ya üstü deşikli bir qutu
- Bütün materialları yığmaq üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Baş və işarə barmaqları ilə tutma
- Göz-əl koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Xırda pulların ölçülərinin uşaqlarınız üçün təhlükəli olmadığına əmin olun. Övladlarınızın əllərinə keçən hər şeyi ağızlarına aparmaq kimi vərdişləri varsa, xırda pullardan istifadə edərkən diqqətli olun.



**BACARIQ 11: Üzün hissələrini oyuncaq yumurtaya oxşar kəlləyə taxma**

Uşaq insan üzünün hissələrini oyuncaq yumurta şəklindəki fiqura yerləşdirir.



**MATERİALLAR:**

- Yumurta şəklində oyuncaq fiqur
- Sifətin hissələrinin saxlanılması üçün bir qab
- Hissələr taxılarkən fiqurun dayanması üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Göz-əl koordinasiyası;
- Əgər hissələr doğru yerlərə taxılarsa, bədən üzvlərini tanıma

**FƏRQLİ TƏTBİQLƏR:**

Yumurta şəklindəki fiqura taxılacaq hissələri və hissələrin sayını dəyişdirin. Mağazalarda bu tapşırıqda istifadə edilə biləcək fərqli formalarda yumurta şəklində oyuncaqlar vardır.

**BACARIQ 12: Legolardan kontruksiya düzəltmə**

Uşaq bir-birinə keçirilə bilən leqolardan bir maket düzəldir.



**MATERİALLAR:**

- Fərqli rənglərdə bir-birinə keçirilə bilən leqolar və onların saxlanılması üçün bir qab
- Ayaqqabı qutusunun üzərinə qoyulmuş və nümunə kimi göstərilə biləcək bir maket (uşaq maketi düzəltdikdən sonra hissələrin olduğu qaba bu maketi geri qoya bilər)

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Göz-əl koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu tapşırığın çətinlik dərəcəsini müxtəlif ölçü və formalarda leqolardan istifadə etməklə dəyişdirə bilərsiniz. Leqoların nümunə maket ilə uyğunluğundan əmin olun. Uşaqların nümunə maketi hissələrə ayırmamaları və bu hissələrdən istifadə etməmələri üçün həmin nümunə maketi yapışqanla bərkidə bilərsiniz.



**BACARIQ 13: Çubuğa çarx düzəltmə**

Uşaq rəngli makaronları rənglərinə uyğun çubuqlara düzür.




**MATERİALLAR:**

- Rəngli makaronlar (quaj boyası ilə rənglənmiş)
- Şokolad qutusu
- Mayeni sormaq üçün uzun plastik boru (quaj boyası ilə rənglənmiş)

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Motorika
- Eyniləşdirmə

**FƏRQLİ TƏTBİQLƏR:**

Əlavə olaraq kiçik motorika çalışmaları üçün çubuqların sayı artırıla bilər. Rənglər artırılaraq qarşılaşdırma çalışmaları çoxaldıla bilər. Kiçik motorika çalışmaları üçün çubuqlardan keçən makaronların ölçüləri kiçildilə bilər.

**BACARIQ 14: Legoları müvafiq şəklin içinə yerləşdirmə**
Uşaq leqoları uyğun gələn şəklin içinə yerləşdirir.



**MATERİALLAR:**

- Rəngli leqo hissələri
- Leqoları saxlamaq üçün kiçik bir səbət
- Üzərində leqoların yerləri çəkilmiş laminasiyalı kağız

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq
- Motorika bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Leqoların sayı artırılaraq rənglərin qarşılaşdırılması işi çətinləşdirilə bilər. Leqo hissələrinin lövhə üzərindəki yerləri solğunlaşdırılaraq şagirdin şəkli eyniləşdirmə tapşırığı çətinləşdirilə bilər.



**BACARIQ 15: Rənglərinə uyğun yerləşdirmə**
Uşaq kiçik rəngli süngərləri balığın üzərindəki eyni rəngin üstünə qoyur.



**MATERİALLAR:**

- Karton
- Boya qələmləri
- Rəngli süngər
- Rəngli süngərləri içində saxlamaq üçün plastik torba

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Rəngləri öyrətmə

**FƏRQLİ TƏTBİQLƏR:**

Rənglər istəyə uyğun dəyişdirilə bilər. Oxumağı və yazmağı bacaran uşaqlar üçün rəngləri qələm ilə çəkmək əvəzinə, rənglərin adlarını yazaraq, yazı vasitəsilə qarşılaşdırma aparıla bilər. Rənglərin sayı artırıla və azaldıla bilər. Balıq əvəzinə başqa bir heyvan və ya əşya, həmçinin süngər əvəzinə, rəngli kağızlar və ya rəngli əşyalar istifadə oluna bilər.

## BACARIQ 16: Muncuqları şəklin içinə yerləşdirmə

Uşaq muncuqları rənglərinə uyğun gələn şəklin içinə itələyərək yerləşdirir.



**MATERİALLAR:**

- Ağzı büzülən torba
- Ağ karton və ya ağ kağız
- Rəngli muncuqlar
- Muncuqlarla eyni rəngdə maye sormaq üçün çöplər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Motorika
- Əl-göz koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Muncuq və boruların (maye sormaq üçün) rəngləri dəyişdirilə bilər. Çöp əvəzinə, ağ kağız üzərinə rəngli qələmlə yollar çəkilə bilər. Muncuq sayı azaldıla və ya artırıla bilər. Tapşırığı çətinləşdirmək (və ya asanlaşdırmaq) üçün muncuqların ölçüləri kiçildilə (və ya böyüdülə) bilər.



## BACARIQ 17: Plastik nazik boruların içindən ip keçirmə

Uşaq sayına və rənginə görə karton üzərindəki kiçik borulardan ip keçirir.




**MATERİALLAR:**

- Karton
- Maye sormaq üçün rəngli çöplər
- Yapışqanlı rəqəmlər
- Boruları yapışdırmaq üçün yapışdırıcı
- Ayaqqabı bağı
- Taxta çubuqlar

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq
- Əl-göz koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Rəqəm və boruların sayı artırılaraq uşaq üçün daha maraqlı bir zəmin hazırlamaq olar. Rəqəmlər taxta çubuq və karton üzərinə qarışıq şəkildə yerləşdirilərək, daha mürəkkəb bir zəmin hazırlana bilər və bununla da uşağın zəmini əzbərləməsi ehtimalı ortadan qalxar. Boruların rəngləri artırılaraq, daha çox rəng eyniləşdirmə çalışması və rənglərin öyrənilməsi təmin edilə bilər.

**BACARIQ 18: Şüşə qapaqlarını xətlərin üzərindən keçirərək içəri atma**

Uşaq kağız üzərinə çəkilmiş yollarla limonad qapağını rənginə uyğun deşikdən içəri atır.



**MATERİALLAR:**

- Limonad qapağı
- Yol çəkmək üçün qələm
- Taxta çubuq
- Qapaqların və taxtanın arxasına yapışdırmaq üçün maqnit
- Karton

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika
- Əl-göz koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Əlinizdə qalın karton yoxdursa, onun əvəzinə ayaqqabı qutusu kimi bir qutudan istifadə edə bilərsiniz. Üç yol əvəzinə, bir yol çəkə və bu yolu da qarma-qarışıq edə bilərsiniz. İşi maqnit əvəzinə, əl ilə də gördürə bilərsiniz. Uşaq qapağı əlinə alır və yollardan keçməklə qapağı deşiyə atır. Qrup şəklində oynayıb yarış təşkil edə bilərsiniz. Ən qısa vaxtda bitirən yarışın qalibi olar.



**BACARIQ 19: Böyük motorika bacarıqlarından istifadə edərək topları deşikdən içəri atma**

Uşaq böyük motorika bacarıqlarından istifadə etməklə topları hədəflənən yerə aparır



**MATERİALLAR:**

- Rəngli və rəngsiz karton
- Silikon tapançası
- Top
- Market bıçağı, qayçı

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Motorika bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Materialı qrup çalışmasına çevirmək üçün iki uşağı qarşılıqlı şəkildə işə cəlb etmək olar. Tapşırığı daha da çətinləşdirmək üçün materialın bir tərəfi bərkidilib, digər tərəfinə qollar əlavə olunmaqla icra etdirilə bilər.

EYNİLƏŞDİRMƏ BACARIQLARI



**BACARIQ 1: Plastik yumurtaları rənglərinə görə eyniləşdirmə**
Uşaq rəngli plastik yumurtaları yumurta qutusunda uyğun yerlərə qoyur.



**MATERİALLAR:**

- Rəngli plastik yumurtalar
- Yumurta qutusu
- Yumurta qutusunda yumurtaların qoyulacağı yerlərə yapışdırmaq üçün rəngli yapışqanlı şəkillər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Əlavə olaraq kiçik motorika çalışması üçün yumurtalar hissələrə ayrıla və uşaq da onları qutuya atmadan əvvəl birləşdirə bilər. Rənglərin adları ağ kağızlara yazılıb yumurta qutusuna yapışdırıla və uşaqlardan bu yazılar əsasında rəngli yumurtaları eyniləşdirmə tələb oluna bilər.

**BACARIQ 2: Paltar sancaqlarını rənglərinə görə eyniləşdirmə**
Uşaq paltar sancaqlarını rənglərinə görə eyniləşdirir.



**MATERİALLAR:**

- Rəngli paltar sancaqları
- Paltar sancaqlarını rəng uyğunluğuna görə eyniləşdirmək üçün üzərində eyni rənglər olan karton kvadratlar
- Paltar sancaqlarının olduğu bir qab
- Bütün materialların içinə qoyulduğu bir sini və ya qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq
- Kiçik-motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Tapşırığın daha asan və sürətli olması üçün qutuya hər rəngdən bir paltar sancağı qoyun. Uşaqlar rənglərə uygun olaraq paltar sancaqlarını eyniləşdirir. Kartonun üstünü rəngləmək əvəzinə, rənglərin adları kartonun üzərinə yazmaqla uşaqların paltar sancaqlarını oxuduqları sözlərə görə eyniləşdirə bilərlər.



**BACARIQ 3: Pazl hissələrini formasına görə eyniləşdirmə**

Uşaq şəklin ayrı-ayrı hissələrini şəkillərin çəkildiyi yerlərlə eyniləşdirir.



**MATERİALLAR:**

- Arxaları yapışqanlı və özünəməxsus şəkilli hissələr
- Üzərində hissələrin çəkildiyi bir karton parçası və çəkilmiş şəkillərin ortasında yapışqanlı hissə
- Eyniləşdirlmiş hissələri içinə yığmaq üçün bir qab
- Bütün materialları saxlamaq üçün bir sini və ya bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Vizual fərqləndirmə
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Hissələri əskik olan keçirməli düz-dağılt oyunun varmı? Burada əlinizdə qalan hissələrdən istifadə edə bilərsiniz. Hissələri keçirməli olan düz-dağılt taxtası yerinə karton üzərinə şəkillərini çəkib yapışqan vura bilərsiniz və beləliklə əlinizdə yeni bir düz-dağılt oyununuz olar.

**BACARIQ 4: Taxta kubikləri rənglərinə görə eyniləşdirmə**

Uşaq rəngli blokları (kubikləri) uyğun rəng bölmələrinə yerləşdirir.



**MATERİALLAR:**

- Rəngli 2,5 sm-lik bloklar (kubiklər)
- Blokları qoymaq üçün bir qab
- Ayrıca yerləri olan lövhənin (məsələn, yumurta qabı) deşikləri üçün bloklarla eyni rəngdə olan yapışqanlı şəkillər
- Bütün materialları içərisində saxlamaq üçün ayaqqabı qutusunun qapağı və ya sini

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Daha qısa bir tapşırıq üçün karton yumurta qutusu götürün və iki yerə bölünür. Beləliklə, uşaqlar sadəcə altı yeri eyniləşdirmiş olacaqlar. Birə-bir eyniləşdirmə çalışması etmək üçün deşikli hissədən yapışqanları qoparın və sadəcə tək rəng kubikdən istifadə edin. Bu materiallarla uşaq hər bloku (kubiki) deşikli lövhədəki yerinə qoymalıdır.



**BACARIQ 5: Rəngli lövhələri eyniləşdirmə**

Uşaq rəngli hissələri eyniləşdirir.



**MATERİALLAR:**

- Rəngli kartonlar (və ya ev dekorasiyası dükanlarında satılan rəngli kirəmitli lövhələr. Satış yerlərində bu lövhələrin üstü adətən deşikli olur)
- Rəngli hissələri qoymaq üçün qutu
- Rəngli hissələri asmaq üçün plastik qarmaqlı ayaqqabı qutusu
- Vizual model olması üçün ayaqqabı qutusuna hər rəngdən nümunə yapışdırılır

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq
- Kiçik-motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Daha kiçik tapşırıq üçün plastik qarmaqlar ayaqqabı qutusu yerinə bərk kartona yapışdırıla bilər. Rəngli hissələr ayaqqabı qutusuna güclü bir yapışdırıcı ilə yapışdırıla bilər.

**BACARIQ 6: Sadə şəkilləri eyniləşdirmə**

Uşaq tamamilə eyni olan əşyaların şəkillərini eyniləşdirir.



**MATERİALLAR:**

- Bir-birinə tamamilə bənzəyən iki şəkil (bu şəkillər dəftərxana mağazalarında təqvim günlərini etiketləmək üçün satılır)
- Ayaqqabı qutusu və üst hissəsində bir şəkil qrupu və altı yapışqanlı şəkillər
- Şəkilləri qoymaq üçün qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Vizual fərqləndirmə
- Oxumağa hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Yeni qutu düzəltmədən şəkilləri dəyişdirmək üçün şəkilləri qutunun üstünə qoymazdan əvvəl yapışqanlı şəffaf şəkil çərçivələri qoyun. Şəkli yenisi ilə əvəz etmək istədikdə sadəcə çərçivədəki köhnə şəkli çıxarın, yenisini qoyun. Çərçivələr qutuda qalsın və yeni şəkillər əlavə oluna bilsin.



**BACARIQ 7: Taxta kubiklərin qəliblərini eyniləşdirmə**

Uşaq eyni rəngdəki kubiklləri əvvəlcədən müəyyənləşdirilmiş qəliblər ilə eyniləşdirir.



**MATERİALLAR:**

- Ayaqqabı qutusunun üstünə yapışdırılmış 2,5 sm-lik rəngli kubiklər
- Hər kubiklər altına vurulmuş yapışqanlı hissə
- Ayaqqabı qutusunun üzərindəki kubiklərə uyğun gələn və altlarına yapışqanlı hissə vurulmuş kubiklər
- Kubikləri saxlamaq üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Kubikləri qutunun üstünə möhkəm yapışdırmaq üçün güclü bir yapışqandan istifadə oluna bilər. Bu metod daimi olar və arxası yapışqanlı kubiklərin qarışmamasını təmin edər. Bundan başqa, yapışqanlı hissəni rəngləmək və ya kənarlarını xətləmək ağ səthdə ağ yapışqanlı hissənin daha aydın görünməsinə kömək edər.

**BACARIQ 8: Detallı şəkilləri eyniləşdirmə**

Uşaq detallı şəkilləri eyniləşdirir.



**MATERİALLAR:**

- Eyniləşdiriləcək  şəkillər (yaddaş oyunu şəkilləri)
- Eyniləşdiriləcək şəkillər üçün bir sini.
- Bütün şəkilləri qoymaq üçün bir qab.

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Vizual fərqləndirmə
- Oxumağa hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Şəkilləri skoç və ya yapışdırıcı ilə siniyə bərkidə bilərsiniz. Bu yolla eyniləşdirləcək şəkillər sinidə qalar və uşağın vəzifəsi boşda qalan şəkilləri sinidəki şəkillər ilə eyniləşdirmək olar.



**BACARIQ 9:  Şəkilləri eyniləşdirmə**

Uşaqlar şəkilləri eyniləşdirir.



**MATERİALLAR:**

- Müxtəlif formalarda bloklar və ortalarında yapışqanlı hissə
- Bloklar birləşdirildikdə meydana çıxan formanın ayaqqabı qutusu və ya kartona çəkilmiş şəkli
- Nümunədəki hər şəklin ortasında yapışqanlı hissə
- Nümunə ilə eyniləşdiriləcək  hissələrin saxlanması üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Eyni şəkillərdən qruplaşdırma bacarıqları üçün də istifadə edə bilərik. Uşaqlar bütün üçbucaq, dairə, kvadrat və digərlərini qruplaşdıra bilərlər.

Nümunəni düzəldərkən hər şəkildən bir dəfə istifadə edildiyindən əmin olun. Uşaq bu tapşırığı tamamlamaq üçün qutudakı bütün şəkilləri eyiləşdirməlidir. Nümunədəki modeli rəngləyin, çalışın, eyniləşdiriləcək hissələrə bənzəsin.

**BACARIQ 10: Bir zolaq üzərində şəkilləri eyniləşdirmə**

Uşaq bir zolaq üzərindəki şəkilləri eyniləşdirir.



**MATERİALLAR:**

- Üzərində fərqli şəkillər olan zolaqlar (yuxarıdakı şəkildə istifadə olunan iki eyni zolaq lövhələrin kənarlarına yapışdırılan yapışqanlı zolaqlardır).
- Hər şəklin üstünə yapışqanlı hissə
- Arxalarına yapışqanlı hissə (cırt-cırt) vurulmuş eyniləşdirləcək şəkillər
- Eyniləşdirləcək şəkilləri saxlamaq üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq
- Oxumağa hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Divar lövhələrinin kənarlarına vurulan yapışqanlı zolaqların özlərinə aid sadə rəsmləri ola bilir. Bu zolaqlar eyniləşdirmə bacarıqları üçün möhtəşəm bir vasitə ola bilər. Buna bənzər bir tapşırıq karton və yapışqan, əl ilə çəkilmiş və ya kompüterdən çıxarılmış şəkillər və ya rezin möhürlü rəsmlərdən istifadə edilməklə yerinə yetirilə bilər.



**BACARIQ 11: Qutuları qapaqları ilə eyniləşdirmə**

Uşaq qutuları qapaqları ilə eyniləşdirir.



**MATERİALLAR:**

- Müxtəlif rənglərdə kiçik qutular
- Qutuların alt hissələrini və qapaqlarını saxlamaq üçün bir ayaqqabı qutusu
- Bir-birlərinə taxılmış qutuları saxlamaq üçün bir ayaqqabı qutusu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Riyaziyyata hazırlıq
- Motorika bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Qutuların rəngli olması qarşılaşdırmaya kömək edir. Tapşırığı çətinləşdirmək üçün qutuların orijinal halından istifadə edin. Bu yolla uşaqların sadəcə qutuların ölçülərinə görə eyniləşdirmə etmələrinin qarşısı alınar.

İki ayaqqabı qutusunun üzərinə «açıq» və «qapalı» yazın və bu yolla sadəcə qutulardan istifadə etməklə açıq və qapalı anlayışları arasındakı əlaqəni uşaqlara izah edə bilərsiniz.

## BACARIQ 12: Əşyaları şəkilləri ilə eyniləşdirmə

Uşaqlar əşyaları öz şəkilləri ilə eyniləşdirirlər.



**MATERİALLAR:**

- Müxtəlif əşyalar və bu əşyaların şəkilləri
- Əşyaları saxlamaq üçün bir qutu
- Əşyaları öz şəkilləri ilə eyniləşdirmək üçün içində xüsusi «bölmə»lər olan ayaqqabı qutusu
- Hər "bölmə"nin üstünə əşyaların şəkilləri yapışdırılıb

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Vizual fərqləndirmə

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu tapşırıq əşyaları şəkilləri ilə qarşılaşdırmağa yeni başlayan uşaqlar üçündür. Uşaq inkişaf etdikcə şəkillər kompüter və ya rəngli əl işləri ilə dəyişdirilə bilər. Uşaq əşyaları rəngli şəkillərlə eyniləşdirldikdən sonra ağ-qara şəkillərə keçə bilər. Hər mərhələdə tapşırığın çətinliyi artırılır və şəkillər əşyalara birə-bir oxşamamağa başlayır.



## BACARIQ 13: Tamamilə eyni şəkilləri eyniləşdirmə

Uşaqlar tamamilə bir-birinin eyni olan şəkilləri eyniləşdirir.



**MATERİALLAR:**

- 2 cüt eyni şəkillər, 1 cüt loto, lotoreya kartı və ya düz zəminli digər kartlar, digər dəst eyniləşdiriləcək kartlar
- Kart və ya kartondakı şəkillərin üzərinə vurulmuş yapışqanlar və eyniləşdiriləcək kartların arxasına vurulmuş yapışqanlar
- Eyniləşdiriləcək kartları qoymaq üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Vizual fərqləndirmə
- Oxumağa hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Eyni şəkil lövhəsi daha sonrakı mərhələlərdə uşaqların oxuma bacarıqlarının artırılması üçün də istifadə oluna bilər. Uşaq şəkilləri şəkillər ilə eyniləşdirmək əvəzinə, sözlərin yazıldığı kartları şəkil lövhələri ilə eyniləşdirə bilər.

**BACARIQ 14: Qar adamını tamamlama**
Uşaq qar adamının papağındakı kiçik və böyük hərfləri eyniləşdirərərk, qar adamını tamamlayır.




**MATERİALLAR:**

- Karton və yapışqan
- Büyük və kiçik hərfli qar adamı (laminasiya olunmuş)
- Qar adamının papağını kəsmək üçün qayçı
- Kiçik hərfli papaqları qoymaq üçün qutu
- Qar adamının gövdələrini kartona yapışdırmaq üçün yapışdırıcı

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Əlifba
- Böyük-kiçik hərf eyniləşdirmə
- Oxuma-yazmağa hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqlar əvvəlcə müəyyən hərfləri öyrənib, sonra bütün əlifbanın deyil yalnız öyrəndikləri bəzi hərfləri eyniləşdirə bilərlər. Uşaqların əlifba sırasını əzbərləməmələri üçün qar adamları əlifba sırası yerinə, qarışıq şəkildə sıralana bilər.



**BACARIQ 15: Rənginə görə balıq tutma**
Uşaq tutduğu balıqları rənglərinə görə eyniləşdirib qutunun içinə atır.



**MATERİALLAR:**

- Karton qutular
- Karton
- Rəngli əl işi kağızlar
- Yapışdırıcı
- İp və maqnit
- Balıqlar üçün rəngli qələmlər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə qabiliyyəti

**FƏRQLİ TƏTBİQLƏR:**

Qutuların yerləri dəyişdirilərək materialın istifadə sahələri artırıla bilər. Balıqların sayı uşaqların səviyyələrinə görə tənzimlənə bilər. Maqnitli çubuq əvəzinə, uşaq əlləri ilə də eyniləşdirmə apara bilər.

**BACARIQ 16: Paltar sancaqlarını rəng və sayına görə eyniləşdirmə**

Uşaq paltar sancaqlarını sayına və rənglərinə görə eyniləşdirir.



**MATERİALLAR:**

- Fərqli rənglərdə paltar sancaqları
- Paltar sancaqlarını içinə yığmaq üçün qutu
- Karton
- Rəqəmləri yazmaq üçün rəngli qələm

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Eyniləşdirmə
- Rəngləri öyrənmə
- Riyaziyyata hazırlıq
- Kiçik motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Rəqəmləri bilməyən uşaqlar üçün rənglərdən istifadə oluna bilər. Tapşırığı daha da çətinləşdirmək üçün bütün paltar sancaqları eyni rəngdə ola bilər. Uşaq sayılara görə paltar sancağı taxar. Sayılar rəqəm əvəzinə, hərflə yazıla bilər. Evinizdə kifayət qədər paltar sancağı yoxdursa, bunun əvəzinə sayılara uyğun rəngli kağızdan istifadə edə bilərsiniz.



## QRUPLAŞDIRMA BACARIQLARI

**BACARIQ 1: 2 fərqli rəngdən ibarət maşınları qruplaşdırma**

Uşaq oyuncaq maşınları rənglərinə görə qruplaşdırır.




**MATERİALLAR:**

- İki fərqli rəngdə oyuncaq maşın
- Qruplaşdırılmış maşınlar və bütün rəngli maşınlar üçün fərqli bölmələri olan qutu (və ya üç ayrı qutu da olar)
- Qruplaşdırılmış bölmələrin altında etiketlər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- İlkin riyazi vərdişlər
- İlkin oxuma vərdişləri

**FƏRQLİ TƏTBİQLƏR:**

Rəngləri öyrənən uşaqlar üçün alt etiketlər maşınlarla eyni rəngdə ola bilər və ya sözləri oxuya bilər uşaqlar üçün sözlər qara rəngdə yazıla bilər. Maşınlar iki fərqli növ üzrə də qruplaşdırıla bilər (məs., minik maşınları, yük maşınları, təyyarələr).



**BACARIQ 2: 3 fərqli rəngdən ibarət kağızları qruplaşdırma**

Uşaq fişləri rənglərinə görə ayırır.



**MATERİALLAR:**

- 3 fərqli poker fişləri və onları saxlamaq üçün qab
- Üzərinə 3 deşik açılmış bir ayaqqabı qutusu və deşiklərə bərkidilmiş 3 qab, hər rəng üçün başqa qab
- Qabları qruplaşdırmaq üçün ayaqqabı qutusunun üzərinə bərkidilmiş qabların üst hissəsinə yapışdırılmış hər rəngi təmsil edən poker fişləri

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Müəyyən müddət ərzində bəzi uşaqlar bir çox rəngləri qruplaşdıra bilərlər. Bu qabiliyyətlərini inkişaf etdirmək üçün daha uzun bir ayaqqabı qutusundan istifadə edərək, üzərinə 5 və ya 6 fiş qoyula bilər. Daha çox kiçik-motorika çalışması etmək üçün uşaqlar fişləri qablara qoymaq əvəzinə, ayaqqabı qutusunun üzərində açılmış deşiklərə ata bilərlər.

**BACARIQ 3: 4 fərqli rəngdən ibarət oyuncaq hissələri qruplaşdırma**

Uşaq 4 fərqli rəngdə oyuncaq hissələrini rənglərinə görə qruplaşdırır.



**MATERİALLAR:**

- 4 fərqli rəngdə oyuncaq hissələri (şəkildəki hissələr köhnə bir oyundandır).
- Bir ayaqqabı qutusu
- Ayaqqabı qutusunun sol üst tərəfində kəsilmiş bir deşiyə bərkidilən qruplaşdırılacaq oyuncaqları qoymaq üçün bir qab
- Ayaqqabı qutusunun sağ üst tərəfində kəsilmiş deşiklərə bərkidilən qruplaşdırılacaq hissələri qoymaq üçün hissələrin rəngində 4 qab.

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Əgər hissələrin özünəməxsus xüsusiyyətləri varsa, (məs., maşın və ya heyvan), bu bacarıq hissələrin iki xüsusiyyətinə görə inkişaf etdirilə bilər: qırmızı maşınlar, qırmızı heyvanlar, mavi maşınlar, mavi heyvanlar, yaşıl maşınlar, yaşıl heyvanlar, sarı maşınlar, sarı heyvanlar.



**BACARIQ 4: 3 fərqli rəngdən ibarət muncuqları qruplaşdırma**

Uşaq üç fərqli rəngdə olan muncuqları qruplaşdırır.



**MATERİALLAR:**

- Fərqli rənglərdə bir neçə böyük muncuq
- Bir ayaqqabı qutusu
- Ayaqqabı qutusunun sol tərəfindəki deşiyə bərkidilmiş muncuqları içərisində saxlamaq üçün bir qab
- Fərqli rəngdəki muncuqların qruplaşdırılıb içinə qoyulması üçün kiçik qablar, ayaqqabı qutusunun sağ tərəfindəki deşiklərə bərkidilə bilər.
- Qutuları qruplaşdırmaq üçün rəngli kağız parçaları

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Əgər möhkəm şəkildə deşiklərə bərkidilməsi üçün qruplaşdırmada istifadə etdiyiniz kiçik qablarınızın «ağzı» yoxdursa, qutuya daha möhkəm yapışması üçün qabların kənarlarını silikonlaya bilərsiniz.

**BACARIQ 5: Rəngli plastik maye çöplərini qruplaşdırma**
Uşaq rəngli maye çöplərini qruplaşdırır.



**MATERİALLAR:**

- Rəngli maye çöpləri
- Qruplaşdırılacaq maye çöplərini qoymaq üçün bir qab
- Silindr formasında bir qab (bəzi kartof çipsilərinin qabları da ola bilər)
- Qabın üstünə yapışdırılmış, maye çöplərinin rənglərinə uyğun, deşi şəklində nöqtələr

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırmaq
- Riyaziyyata hazırlıq
- Kiçik-motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Şəkildəki nümunədə göstərilən maye çöplər üçün qapağın üstündəki yapışqanın deşilməsi üçün kiçik deşici alətdən istifadə oluna bilər. Əgər maye çöplərin rənglərinə uyğun olan yapışqanlı kağızlar tapa bilməsəniz, 3 deşik açıb kənarlarını maye çöplərinə uyğun olan rənglərə boyaya bilərsiniz.



**BACARIQ 6: Oğlan və qızları qruplaşdırma**
Uşaq oğlan və qız şəkillərini qruplaşdırır.



**MATERİALLAR:**

- Jurnallardan kəsilərək kartonlara yapışdırılmış oğlan və qız şəkilləri
- Qruplaşdırılacaq şəkilləri yığmaq üçün bir qab
- Qruplaşdırılacaq şəkilləri yığmaq üçün iki qab, qabların üstündə fotoşəkilli ipucu
- Qruplaşdırma qablarını bərkitmək üçün üstünə deşiklər açılmış bir ayaqqabı qutusu
- 
- **HƏDƏFLƏNƏN BACARIQLAR:**
- Qruplaşdırma
- Vizual fərqləndirmə
- Oğlan və qız sosial anlayışları

**FƏRQLİ TƏTBİQLƏR:**

Bir neçə oğlan və qız şəkilləri tapın. Yaşca böyük oğlan və qızları da daxil edin. Bu anlayışları ümumiləşdirmək üçün fərqli etniklərdən də istifadə edin.

## BACARIQ 7: Düymələri rənglərinə görə qruplaşdırma

Uşaq düymələri rənglərinə görə qruplaşdırır.



**MATERİALLAR:**

- 3 fərqli rəngdə düymələr
- Qruplaşdırılacaq düymələri saxlamaq üçün bir qab
- Bir ayaqqabı qutusu
- Ayaqqabı qutusunun üzərinə bərkidilmiş düymələrlə eyni rəngdə 3 qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Bəzən düymələrin ölçü və rəngləri müxtəlif ola bilər. Tapşırığı çətinləşdirmək üçün uşaqlar düymələri ölçü və rənglərinə görə qruplaşdıra bilərlər - böyük qırmızı düymə, kiçik qırmızı düymə və s. Böyüklüyünə görə qruplaşdırmaq üçün başqa rəngdə bir qab və etiket dəstinə ehtiyacınız ola bilər.



## BACARIQ 8: Pozanları qruplaşdırma

Uşaq kiçik pozanları kateqoriyasına görə qruplaşdırır.



**MATERİALLAR:**

- Kiçik pozanlar
- Pozanları saxlamaq üçün bir qab
- Pozanları qruplaşdırmaq üçün kiçik qablar və üstünə qabları bərkitmək üçün bir ayaqqabı qutusu
- Hər qabı təsvir etmək üçün bir nümunə və ya başqa bir etiket

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Kiçik pozanlar bəzən ucuz mağazalarda və ya dəftərxana malları dükanlarında satılır.

**BACARIQ 9: 2 növ əşyanı qruplaşdırma**

Uşaq iki çeşiddə əşyaları qruplaşdırır.



**MATERİALLAR:**

- İki fərqli əşya üçün bir neçə nümunə (burada blok və toplardan istifadə etmək olar)
- 3 səbət – hər bir əşya üçün bir səbət və qruplaşdırılacaq əşyaları yığmaq üçün bir səbət
- Əşyaların qruplaşdırılacağı səbətlər üçün etiketlər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq
- Oxumağa hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Yeni başlayan uşaqlar rəng və ölçü fərqlərini nəzərə almadan eyni olan blokları və topları qruplaşdıra bilər. Daha irəlidə olan uşaqlar əşyaları və ya əşyaların şəkillərini iki kateqoriyaya ayıra bilərlər. Məsələn, ev heyvanları və zoopark heyvanlarını qruplaşdıra bilərlər. Həmçinin mətbəx əşyaları və hamam əşyaları, yay əşyaları və qış əşyalar və s.



**BACARIQ 10: Fərqli əşyaları qruplaşdırma -1**

Uşaq iki fərqli əşyanı qruplaşdırıb doğru deşiyə atır.



**MATERİALLAR:**

- Kiçik və üçölçülü "nakleyka"lar (yapışqanlar, etiket)
- Qruplaşdırılacaq "nakleyka"ları (yapışqanlar) saxlamaq üçün bir qab
- Üstündə iki deşik açılmış bir ayaqqabı qutusu və ya bir başqa qutu və deşikləri təyin etmək üçün etiketlər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq
- Kiçik-motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Ayaqqabı qutusunun əvəzinə, nəm salfet qabları istifadə edə bilərsiniz. Bıçaqla qapağı deşə və nümunə "nakleyka"ları silikon ilə qapağa yapışdıra bilərsiniz. Deşikdən içəri atılacaq "nakleyka"lar kiçik-motorika bacarıqlarını inkişaf etdirmək üçün yaxşı vasitədir.

**BACARIQ 11: Fərqli əşyaları qruplaşdırma -2**

Uşaq iki fərqli əşyanı qruplaşdırır.



**MATERİALLAR:**

- İki fərqli növdə əşya və onları içərisində saxlamaq üçün bir qab
- Əşyaların qruplaşdırılacağı iki qutu
- Qutuların bərkidilməsi üçün üzərində deşiklər açılmış ayaqqabı qutusu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu, böyük və ya daha real əşyalara ehtiyac duyan uşaqlar üçün yaxşı tapşırıqdır. Bundan başqa, ölçüləri böyük olduğu üçün daha az əşyaya ehtiyac duyulur və proqrama yeni başlayan uşaqlar üçün əla tapşırıqdır.

Yuxarıdakı şəkildə istifadə olunan alma və balqabaqlar yolka oyuncaqlarıdır.



**BACARIQ 12: Kartları rənglərinə görə qruplaşdırma**

Uşaq rəngli əşyaları rənglərinə görə qruplaşdırır.




**MATERİALLAR:**

- Müxtəlif rənglərdə kartlar və ya rəngli kağızlar
- Qruplaşdırılacaq kartları saxlamaq üçün bir qab
- Qapağında deşiklər açılmış bir ayaqqabı qutusu, qruplaşdırmaq üçün deşiklərin ətrafında vizual ipucları

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Rəng nümunələri bir çox tonlarda ola bilər. Tapşırığı daha da çətinləşdirmək üçün qapağın üzərindəki vizual ipuclarındakı rənglərlə birə-bir uyğun gəlməsə də, yaşıl, qırmızı, mavi kimi rənglərin bir çox tonlarını əlavə edin.

Yeni başlayan uşaqlar üçün tək bir ton istifadə edin və qapağın üzərindəki vizual ipucları ilə eyni rəngdə olmasına fikir verin.

**BACARIQ 13: Pastel boyaları rənglərinə görə qruplaşdırma**

Uşaq rəngli karandaşları rənglərinə uyğun qruplaşdırır.



**MATERİALLAR:**

- Bir neçə qabı üzərinə bərkitmək üçün üzərinə deşik açılmış bir ayaqqabı qutusu
- Müxtəlif rənglərdə pastel karandaşlar
- Qruplaşdırılmış pastelləri saxlamaq üçün bir qab
- Ayaqqabı qutusunun sağ tərəfinə bərkidilmiş hər bir rəng üçün istifadə olunacaq kiçik qablar

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırmaq
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Yuxarıdakı şəkildə istifadə olunmuş pastel boyalar əslində pastel boya silgiləridir. Təbii ki, həqiqi pastel boyalar da bu tapşırıqda istifadə oluna bilər.

Qruplaşdırılacaq boyaların rənglərinə uyğun şəkildə hər qabı rəngləyə bilərsiniz.



**BACARIQ 14: Plastik yemək dəstlərini qruplaşdırma**

Uşaq məktəb üçün plastik yemək dəstlərini qruplaşdırır.



**MATERİALLAR:**

- Müxtəlif plastik qaşıq, çəngəl və bıçaqlar
- Qruplaşdırılacaq dəstləri içinə yığmaq üçün bir qutu
- Bölmələrin alt hissəsinə hər bir süfrə dəstinin yapışdırılması üçün tənzimləyici

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırmaq
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Əgər bir bölməli tənzimləyiciniz yoxdursa, üç dənə kiçik qutuları bir-birinə əlavə edə və hər bir qutunu bıçaq, çəngəl və qaşıq deyə adlandıra bilərsiniz.

## BACARIQ 15: İdman ilə bağlı kartları kateqoriyalarına görə qruplaşdırma

Uşaq idman ilə bağlı kartları kateqoriyalarına görə qruplaşdırır.



**MATERİALLAR:**

- Üstünə üç dənə zərf yapışdırılmış bir ayaqqabı qutusu
- Zərflərin üzərində beysbol, futbol və basketbolu işarə edən vizual ipucları vurulur
- Müxtəlif beysbol, futbol və basketbol klublarının kartları
- Qruplaşdırılacaq kartları saxlamaq üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırmaq
- Riyaziyyata hazırlıq
- Vizual fərqləndirmək

**FƏRQLİ TƏTBİQLƏR:**

Bəzi şagirdlər üçün idman kartları həvəsləndirici faktordur və onların bununla bağlı maraqlı materialları olur. Yuxarıdakı şəkildəki tapşırıqdan əlavə, bu idman kartları motorika (deşiyə atma), qarşılaşdırma (eyni kartları qarşılaşdırma), oxuma (idmançıların adlarının oxunması) və digər tapşırıqlarda da istifadə oluna bilər.



## BACARIQ 16: Kağızları rənglərinə görə qruplaşdırma

Uşaq rəngli simli qovluqlara rənglərinə görə kağızları yığaraq qruplaşdırır.



**MATERİALLAR:**

- Qruplaşdırılacaq rəng ilə eyniləşdirliləcək rəngli simli qovluqlar
- Pastel və ya flomasterlə rənglənmiş A4 kağızları
- Qruplaşdırılacaq kağızların saxlanılması üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırmaq
- Riyaziyyata hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Kağızlarda rəng nümunələri əvəzinə, fərqli rənglərdə əşyalar da çəkilə bilər. Uşaq da bu şəkillərə baxaraq, onları rənglərinə görə qovluqlara ayıra bilər.

Oxumağı bacaran uşaqlar üçün rənglərin adları qara rəngli qələmlə kartların üzərinə yazıla bilər. Beləliklə, uşaq sözü oxuyar və kartı doğru rəngin qovluğuna qoyar.

**BACARIQ 17: Eyni və fərqli olanları qruplaşdırma**

Uşaq şəkilləri eyni və ya fərqli olub-olmadığına görə qruplaşdırır.



**MATERİALLAR:**

- Üzərlərində iki "nakleyka" olan kiçik qeydiyyat vərəqələri (bəzi vərəqələrdə eyni, bəzilərində fərqli "nakleyka")
- Qruplaşdırılacaq kartları saxlamaq üçün bir qutu
- Üzərində iki deşiyi olan bir ayaqqabı qutusu və bu deşiklərə bərkidilmiş iki qab (biri eyni, digəri fərqli etiketli)

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Vizual fərqləndirmə
- Qruplaşdırma
- Eyni və fərqli anlayışlar

**FƏRQLİ TƏTBİQLƏR:**

Digər simvollar şuşaqların bacarıq səviyyələrinə görə planlaşdırıla bilər. Bəzi nümunələr cüt nömrələr, hərflər, sözlər, şəkillər və s. ola bilər.



**BACARIQ 18: Əşyaları materiallarına görə qruplaşdırma**

Uşaq materialına görə əşyaları qruplaşdırır.



**MATERİALLAR:**

- "Bərk" və "yumşaq" materialda müxtəlif ev əşyaları
- Bu əşyaları saxlamaq üçün bir qutu
- Üzərinə iki deşik açılmış bir ayaqqabı qutusu və bu deşiklərə bərkitmək üçün iki qab (biri "bərk", digəri "yumşaq" olaraq etiketlənmiş )

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Qruplaşdırma
- Yumşaq və bərk anlayışları
- Bəzi emosional duyğular

**FƏRQLİ TƏTBİQLƏR:**

Yuxarıdakı şəkildəki əşyaların bir çoxu başqa tapşırıqlarda da istifadə olunub. Bəzi material təklifləri: zəng, plastik qab, soyuducu maqniti, taxta parçası, pambıq, tük, makyaj süngəri və s.

**BACARIQ 19: Şəkilləri kateqoriyalarına görə qruplaşdırma**

Uşaq şəkilləri kateqoriyalarına görə qruplaşdırır.



**MATERİALLAR:**

- İki kateqoriyada əşya şəkilləri (məs., paltarlar, yemək, heyvanlar, oyuncaqlar və s.)
- Hər biri kateqoriyalarına görə adlandırılmış iki kağız qovluq
- Qruplaşdırılacaq kağızları qoymaq üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Anlayışlara giriş
- Vizual fərqləndirmə

**FƏRQLİ TƏTBİQLƏR:**

Daha çətin kateqoriyaları qruplaşdıra bilən uşaqlar mətbəx və hamam əşyaları, futbol və beysbol aksesuarları, qış və yay geyimləri və s. üzrə qruplaşdırma apara bilərlər.

Oxumağı bacaran uşaqlar şəkillərin əvəzinə, sözləri kateqoriyalarına görə qruplaşdıra bilərlər.



**BACARIQ 20: Əşyaları ölçülərinə görə qruplaşdırma**

Uşaqlar əşyaları ölçülərinə görə qruplaşdırırlar.




**MATERİALLAR:**

- İki fərqli ölçüdə (uzun və qısa) kubiklər
- Qruplaşdırılacaq blokları saxlamaq üçün bir qutu
- “Uzun” və “qısa” olaraq etiketlənmiş iki qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Vizual fərqləndirmə
- Ölçü anlayışı

**FƏRQLİ TƏTBİQLƏR:**

Daha dərin qruplaşdırmanı bacaran uşaqlar uzun, orta və qısa ölçülər üzrə qruplaşdırma apara bilərlər.

Eyni əşya dəstləri ilə “böyük” və “kiçik” anlayışları üzərində çalışma aparıla bilər.

## OXUMA BACARIQLARI



**BACARIQ 1: Əlifbanı sıralama**

Uşaqlar hərfləri əlifba sırası ilə düzürlər.




**MATERİALLAR:**

- Birində böyük, digərində balaca hərflər olan iki cüt hərf kartları
- Üst sıraya hərflərin yapışdırıldığı, alt sıraya isə bütün hərflərin yapışdırıla biləcəyi yapışqanlı hissəsi olan bir neçə uzun karton parçası
- Bütün hərflərin arxasına vurulmuş yapışqanlı hissə (cırt)
- Qruplaşdırılacaq hərf kartlarının saxlanılması üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Hərf tanıma
- Ard-arda sıralama
- Ön-oxuma

**FƏRQLİ TƏTBİQLƏR:**

Bəzi uşaqlar böyük hərfləri böyükləri ilə, balaca hərfləri isə balacaları ilə eyniləşdirə bilərlər. Hamısını sıralamaq əvəzinə, bəzi uşaqlar əvvəlcə kiçik bir hərf qrupunu öyrənib sıralaya bilərlər.

**BACARIQ 2: Böyük hərfləri balaca hərflərlə eyniləşdirmə**
Uşaqlar balaca hərfləri böyükləri ilə eyniləşdirirlər.




**MATERİALLAR:**

- Altlarına balaca hərflər yazılmış kağız stəkanlar
- Üzərinə stəkanların rahatca sığışa biləcəyi məsafədə böyük hərflərin yazıldığı böyük bir karton
- Stəkanları saxlamaq üçün bir qutu.

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Oxumağa hazırlıq
- Hərfləri tanıma
- Eyniləşdirmə

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqlar böyük hərfləri böyükləri ilə, balaca hərfləri isə balacaları ilə eyniləşdirə bilərlər.
Uşaqlar hərfləri həmin hərflər ilə başlayan şəkillərlə eyniləşdirə bilərlər.



**BACARIQ 3: Sözləri sözlər ilə eyniləşdirmə**
Uşaq sözləri sözlər ilə eyniləşdirir.




**MATERİALLAR:**

- Biri qara, digəri ağ iki düz karton
- Qara kartona içinə sözlər sığacaq genişlikdə deşik hissələr açılır
- Qara karton ağ kartonun üstünə yerləşdirilir, hissələrə sözlər yazılır
- Hər bir söz hissəsinin üstünə yapışqan (cırt-cırt) vurulur
- Üzərlərinə sözlər yazılmış iki cüt qalın, kiçik və yuvarlaq kartlar (kartların arxası yapışqanlı)
- Kartların dik dayanması üçün qara kartonun bir tərəfinə zolaq şəklində cırt-cırt vurulur

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Ard-arda gələn hərfləri eyniləşdirmə
- Oxumağa hazırlıq

**FƏRQLİ TƏTBİQLƏR:**

Əgər cırt-cırtı plastik ciblərin çöl tərəfinə bərkitsəniz, daha çox cırt-cırt istifadə etmədən eyniləşdiriləcək sözləri tez-tez dəyişdirə bilərsiniz.

## BACARIQ 4: Sözləri şəkillər ilə eyniləşdirmə

Uşaq sözləri oxuyur və şəkilləri ilə eyniləşdirir.




**MATERİALLAR:**

- Arxaları cırt-cırtlı yemək şəkilləri (və ya istəyinizə uyğun hər hansı bir şəkil)
- Eyniləşdirləcək şəkilləri qoymaq üçün bir qutu
- Üzərində şəkillərin adları yazılmış və yanlarında cırt-cırt olan karton parçası

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- İlkin oxuma vərdişləri
- Funksional görmə
- Sözləri anlama (kəlimələri anlama)

**FƏRQLİ TƏTBİQLƏR:**

Sözləri digər sözlərlə eyniləşdirməyə yeni başlayan uşaqlar üçün şəkillərin üzərinə sözləri yazın (bu sözlər əlavə ipucu olsun)

Şəkilləri kartonun üzərindəki sözlərlə eyniləşdirərkən, digər uşaqların bu yazılı ipuclarına ehtiyacları olmaya bilər.



## BACARIQ 5: Dənələrin sayını sözlər ilə eyniləşdirmə

Uşaq rəqəmləri oxuyur və uyğun paltar sancaqları ilə eyniləşdirir.



**MATERİALLAR:**

- Üzərində rəqəmlərin adlarının yazıldığı paltar sancaqları
- Paltar sancaqları üçün bir qab
- Dəstləri düzəltmək üçün istifadə olunacaq kiçik "nakleyka"lar və ya damğa
- "Nakleyka"ların sayılıb eyniləşdiriləcəyi karton parçası

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Görülən sözləri oxuma
- Sayma dəstləri
- Paltar sancaqlarından istifadə etmək üçün kiçik-motor bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Bəzi uşaqların dəstləri vizual olaraq fərqləndirməyə ehtiyacları ola bilər. Gözlə görünən bir fərq yaratmaq üçün dəstlərin arasına qələmlə xətlər çəkilə bilər.

**BACARIQ 6: Rəngli qotazları sözlər ilə eyniləşdirmə**

Uşaq rəngli qotazları müvaafiq rənglər ilə eyniləşdirir.




**MATERİALLAR:**

- 3 sm-lik fərqli rənglərdə qotazlar
- Qapağına dairəvi deşiklər açılmış və içinə kağız stəkanlar yerləşdirilmiş bir ayaqqabı qutusu
- İçinə rəngli sözlər yazılmış stəkanlar
- Ayaqqabı qutusuna bərkitmək və qotazları içinə qoymaq üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- İlkin oxuma vərdişləri
- Sadə söz-görüntü anlayışı

**FƏRQLİ TƏTBİQLƏR:**

Ayaqqabı qutusundakı rəng sözləri flomaster ilə rəngli şəkildə yazılır. Rənglərdən ibarət bu ipucları oxumağı yeni öyrənən uşaqlara doğru qotazları tapmalarına kömək edir.

Bu tapşırıqda əlavə bir ipucundan istifadə etmək istəmirsinizsə, sözləri sadəcə qara qələmlə yaza bilərsiniz.



**BACARIQ 7: Sözləri oxuyaraq rənglər ilə eyniləşdirmə**

Uşaq sözləri oxuyur və rənglərlə eyniləşdirir.




**MATERİALLAR:**

- Rəngli kartlar
- Rəngli kartları saxlamaq üçün kiçik bir qab
- Rəngli sözlərin yazıldığı karton parçası və ya qalın karton
- Bütün materialları saxlamaq üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Oxumağa hazırlıq
- Sadə sözləri əlaqələndirmə
- Kiçik-motorika bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqların rəngli kartları eyniləşdirmələrini asanlaşdırmaq üçün möhkəm bir kartondan istifadə etdiyinizdən əmin olun. Böyük qalın kartlar nazik kartları taxmaqdan daha asandır.

## BACARIQ 8: Şəkilləri cümlə kartları ilə eyniləşdirmə

Uşaq cümləni oxuyur və uyğun şəkillər ilə eyniləşdirir.




**MATERİALLAR:**

- Laminasiya olunmuş və ya neylon fayla qoyulmuş asan sözlərin yazıldığı bir kağız və sözlərin sol tərəfinə vurulmuş cırt-cırtlar
- Sözlərə işarə vuran arxası cırt-cırtlı şəkillər
- Eyniləşdirləcək sözləri saxlamaq üçün kiçik bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Oxumağı öyrənməyə başlanğıc və oxumağı anlama

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu nümunədə istifadə olunmuş sözlər:

Qız yatır.
Kitab qırmızıdır.
Buz soyuqdur.
Günəş sarıdır.
Qar adamının papağı var.



## BACARIQ 9: Şəkilləri ilk səslərinə görə eyniləşdirmə

Uşaq varlıqların şəkillərini ilk səsinə görə eyniləşdirir.




**MATERİALLAR:**

- İki hərfin etiketləndiyi boş bir qutu (və ya iki ayrı kənarı olan bir başqa qutu)
- İki fərqli samit hərf ilə başlayan əşyaların şəkilləri (yuxarıdakı şəkillər digər tayı olmayan köhnə bir yaddaş oyunundandır)
- Şəkilləri saxlamaq üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Vizual mötərizə
- Səsləri tanıma
- Hərfləri tanıma

**FƏRQLİ TƏTBİQLƏR:**

Əgər uşaqlar kartlarla oynayır və ya parçaların dağınıqlığından narahat olurlarsa, şəkilləri eyniləşdirmə qutusuna yapışdıra bilərsiniz. Bundan başqa, uşaqlar bu tapşırığı tamamladıqlarında, bu, sizin onları dəyərləndirməyinizə kömək edəcək, çünki parçalar dağılmayacaq.

**BACARIQ 10: Şəkilləri ilk səslərinə görə eyniləşdirmə**

Uşaq şəkilləri baş hərflərinə görə eyniləşdirir.




**MATERİALLAR:**

- Əlifbadakı bütün hərfləri təmsil edən, şəkilli, 7.5-12.5 sm-lik qeyd vərəqələri və şəkillərin altlarına vurulmuş cırt-cırtlar
- Qeyd vərəqələrini saxlamaq üçün kiçik bir qab
- Arxaları cırt-cırtlı, üzərində hərflərin yazıldığı qalın kiçik ölçülü kvadrat kartlar
- Eyniləşdirilən kartların qoyulacağı bir ayaqqabı qutusu
- Hərf kartlarının dik dayanacağı altı cırt-cırtla döşənmiş bir ayaqqabı qutusu qapağı

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Səsləri tanıma
- Hərfləri tanıma

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşağın bacarığına görə böyük və ya balaca hərflərdən istifadə oluna bilər.

Uşaq hərflərin əvəzinə kartındakı şəkli eyni səs ilə başlayan başqa bir şəkil ilə eyniləşdirlə bilər.



**BACARIQ 11: Xüsusiyyət və mühitə görə eyniləşdirmə**

Uşaq şəkilləri xüsusiyyətlərinə və məkanlarına görə qruplaşdırır (insanlar və yerlər).




**MATERİALLAR:**

- İnsan şəkilləri (xarakter) və yer adları (məkan)
- İnsan/yer və ya xarakter/məkan olaraq etiketlənmiş iki cibli qovluq
- Qruplaşdırılacaq şəkilləri saxlamaq üçün bir qutu

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Şəkilləri təsvir etmək
- Öyrənməyə başlanğıc
- Qruplaşdırma

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqların tanıyacağı şəkilləri tapmaq çətin olacağı üçün bir neçə nümunə verək

## SÖZLƏR

### *İNSANLAR*

Həkim
Hindu
Kovboy
Rəis
Yanğınsöndürən
Hərbçi
İnşaat fəhləsi
Poçtalyon
Stomatoloq
Abraham Linkoln
Müəllim

### *MƏKANLAR*

Şəhər
Aeroport
Zoopark
Sirk
Şimal qütbü
Park
Poçt
Amerika Birləşmiş Ştatları
Səhra
Çimərlik
Kosmos
Ferma



**BACARIQ 12: 3 hissəli hekayəni sıraya düzmə**
Uşaq bir hekayənin əvvəlində, ortasında və sonunda nə olduğunu şəkilləri sıralayaraq ayırd edir.




**MATERİALLAR:**

- Arxalarında cırt-cırt olan, sırayla hekayə anladan şəkil kartları (bunları oyuncaq mağazalarından, dəftərxana ləvazımatları satılan dükanlardan almaq olar)
- Qovluq
- Digər hekayəyə keçdikdə yardımçı olan plastik etiketlərin olduğu ayırıcı qovluqlar (ayrıc demək istəmiş)
- Ayırıcı qovluqların üzərində "əvvəli", "ortası" və "sonu" yazılmış etiketlərin altına üç dənə cırt-cırt
- Sıralanacaq kartları saxlamaq üçün qovluğun arxasına yapışdırılmış bir zərf

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Detallara diqqət etmək
- Sıralamaq
- Qavramaq

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu tapşırıqda sıralamaq üçün bir hekayə və ya digər qovluqda da başqa bir hekayə təqdim oluna bilər. Uşağın bacarıqlarına görə bu tapşırıq sıralanmış bir hekayəni təkrar anlatmaları üçün təşviqedici bir vasitə olaraq da istifadə oluna bilər.

**BACARIQ 13: İlk hərfinə görə sözləri qruplaşdırma**

Uşaq sözləri ilk hərflərinə görə eyniləşdirir.




**MATERİALLAR:**

- Üzərlərinə sözlərin yazıldığı 7,5-12,5 sm-lik kartlar
- 7,5-12,5 sm-lik kartlar üçün bir qab
- 7,5-12,5 sm-lik qovluq qutusu
- Üzərində bütün hərflərin yazıldığı böyük karton

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Hərfləri tanımaq və adlandırmaq
- Kiçik-motorika bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqların kartların üzərindəki sözləri oxumaqlarına ehtiyac yoxdur. Uşağın sadəcə sözün ilk hərfini tanıması və qovluq qutusundakı hərf ilə eyniləşdirməsi lazımdır.

İlk hərfə diqqət çəkmək üçün hərf fosforlu qələm ilə yazıla, dairəyə alına və ya fərqli rəngdə yazıla bilər.

Sözləri oxuya bilən uşaqlara əlavə bir neçə bacarıq qazandırmaq üçün başqa qabda o sözü təmsil edən şəkillər təklif edə bilərsiniz. Bu yolla uşaq əvvəlcə sözü oxuyur, sonra eyniləşdiriləcək şəkli tapır və ilk hərfinə görə dosyalayır. Şəkilləri kartlara yapışdırmaq da mümkündür.



**BACARIQ 14: Kateqoriyalarına görə sözləri oxuma**

Uşaq sözləri oxuyur və kateqoriyaya görə ayırır.




**MATERİALLAR:**

- 7,5-12,5 sm-lik kartlara yazılmış fərqli kateqoriyalı sözlər (məs., yemək adları, rəng adları, nömrə adları, heyvan adları və s.)
- 7,5-12,5 sm-lik kartlar üçün qab
- 7,5 sm-lik bir qovluq qutusuna qoymaq üçün kartlardakı hər bir kateqoriyanın yazıldığı ayraçlar

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Vizual sözləri oxumaq
- Qavramaq
- Kateqoriyalara ayırmaq
- Kiçik-motorika bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu kartları fərqli tapşırıqlarda "yenidən dəyərləndirə bilərsiniz". Məsələn, bir şəkildə ilk hərf qırmızı, digərləri qara rənglə yazılıb. İlk hərfə görə fərqləndirən bir uşaq eyni qrupdakı kartlardan əlifba ayraçları ilə də istifadə edə və ilk hərfi qırmızı ilə fərqləndirilmiş sözü ayıra bilər.

Kartlardan qalib olmağa fokuslanmaq üçün də istifadə etmək olar. Əgər cırt-cırtlar sözlərin altlarına bərkidilibsə, uşaqlar sözü təmsil edən şəkilləri həmin sözlər ilə eyniləşdirə bilərlər ki, bu da onların anlama gücünü göstərir.

## BACARIQ 15: Sözləri əlifba ardıcıllığı ilə sıralama

Uşaq sözləri əlifba sırası ilə düzür.




**MATERİALLAR:**

- Üzərinə fərqli hərflərlə başlayan sözlərin yazıldığı paltar sancaqları
- Paltar sancaqlarını yığmaq üçün bir qutu
- Vizual ipucu üçün üstünə işarə qoyulmuş taxta çubuq və ya möhkəm bir karton parçası
- Bütün materialları yığmaq üçün bir ayaqqabı qutusunun qapağı və ya bir sini

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Hərf tanımaq
- Hərf sıralamaq
- Paltar sancaqlarından istifadə etmək üçün lazım olan kiçik-motorika bacarığı

**FƏRQLİ TƏTBİQLƏR:**

Paltar sancaqlarına yazılan sözlərdən asılı olaraq, bu tapşırıq çətinləşdirilə bilər. Şəkildə də olduğu kimi, hərf sıralamağa yeni başlayan uşaqların hər biri başqa hərflərlə başlayan sözlərdən istifadə edə bilər (məs., A-F). Digər uşaqlar sözləri ilk hərflərinə görə sıralaya bilərlər, amma bəzi hərflər əlifba sırasına riayət edilmədən və əskik olsun (məs., A, C, G, K, M, T, Z ilə başlayan sözlər). Daha irəlidə olan uşaqlar ikinci və ya üçüncü hərflərə görə əlifba sıralaması edə bilərlər.



## BACARIQ 16: Ayları tətillər ilə eyniləşdirmə

Uşaq ayları oxuyur və onları tətillər ilə eyniləşdirir.




**MATERİALLAR:**

- Cırt-cırtlı zolaqlı bir qovluq
- 10x15 və ya 12,5x20 sm-lik kartlar (qovluğun ölçüsünə görə dəyişir). Əvvəlcədən proqramlanmış ilin hər ayının adı və altına yapışqanlı hissə
- Cırt-cırtlı fərqli bayramları göstərən simvolik şəkillər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Funksional oxumaq
- Qavramaq

**FƏRQLİ TƏTBİQLƏR:**

Daha bacarıqlı uşaqlar üçün qeyd vərəqələrində bayramın adı ilə tamamlanması tələb olunan bir boşluqlar qoyula bilər. Məsələn, kartda "Fevralda biz ... qeyd edirik" yazıla bilər. Qovluğun alt hissəsində seçim variantlarında bayram ilə əlaqəli ipucu şəkillər verilə bilər.

**BACARIQ 17: Zidd məna ifadə edən sözləri eyniləşdirmə**
Uşaq sözləri oxuyur və zidd mənalı (antonim) sözlərlə eyniləşdirir.




**MATERİALLAR:**

- Hər bir səhifəsinin altında iki zolaqlı cırt-cırtları olan bir qovluq
- 10x15 və ya 12,5x20 sm-lik kartlar (qovluğun ölçüsünə görə dəyişir) və əvvəlcədən planlaşdırılmış şəkildə arxalarında cırt-cırt olan bir-birinin ziddi olan iki söz
- Cırt-cırtlı və ön tərəfi boş əlavə bir kart (ilk sözün antonimi üçün istifadə olunacaq)
- Cırt-cırtlı və hər bir sözün antoniminin yazıldığı kartlar

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Funksional oxumaq
- Qavramaq
- Zidd mənalar (antonimlər)

**FƏRQLİ TƏTBİQLƏR:**

Şəkilli ipucları bəzi uşaqların zidd mənalı anlayışları qavramalarına kömək edər və yazılı sözlərin əvəzinə istifadə oluna bilər. Xüsusilə də oxumağı hələ bilməyən uşaqlar üçün daha münasibdir.



## YAZI BACARIQLARI

**BACARIQ 1: Qələm ilə qırıq-qırıq xətlərin üzərindən keçmə**

Uşaq nöqtələri birləşdirərək bir xətt çəkir.



**MATERİALLAR:**

- Üzərində nöqtələrdən ibarət müxtəlif xəttlər olan bir ayaqqabı qutusu
- Ayaqqabı qutusunun qapağını bağlayan açıq, cırt-cırtlı kağız
- Qutunun üstünə bərkidilmiş yazı lövhəsi qələmi

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Nöqtələri birləşdirmək
- Göz-əl koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Nöqtələri birləşdirməkdə çətinlik çəkən uşaqlar üçün həmin nöqtələr açıq rəngli qələmlə birləşdirilə bilər. Bu yolla uçaqlar daha tünd qələmlə həmin açıq rəngli xəttin üzərindən gedə bilər. Bəzən bu, vizual baxımdan daha asandır.

Qutunu cırt-cırtlı kağız ilə örtmək yazı lövhəsi qələmindən istifadəyə və yazının silinməsinə imkan verər. Bu yolla qutu bir neçə dəfə istifadə olunar.



**BACARIQ 2: Xətt çəkərək əşyaların şəkilləri ilə eyniləşdirmə**

Uşaq xətt ilə əşyaların şəkillərini eyniləşdirir.



**MATERİALLAR:**

- İki oxşaq "nakleyka" dəsti
- Üstündə iki şaquli sırada "nakleyka" olan bir ayaqqabı qutusu, hər sırada bir dəst "nakleyka"
- Ayaqqabı qutusunu örtmək üçün cırt-cırtlı kağız
- Qutunun üstünə bərkidilmiş yazı lövhəsi qələmi

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Vizual fərqləndirmə
- Eyniləşdirmək
- Xətt çəkmək
- Göz-əl koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu tapşırığı asanlaşdırmaq üçün "nakleyka"ları iki sütunda da eyni sırada yerləşdirin. Bu yolla uşaq sadəcə düz və üfiqi xətt çəksin.

Sərbəst şəkildə xətt çəkə bilməyən uşaqlar üçün qutunun qapağında nöqtəli xəttlər qoyula bilər (vizuallıq üçün fərqli rəngdə) və uşaqlar da bu nöqtələri təqib edər.

**BACARIQ 3**: **Hərfləri sıraya düzərək ad yazma**

Uşaq hərfləri sıralayaraq adlarını yazar.




**MATERİALLAR:**

- Uşağın adının hərflərinin üstünə yazıldığı arxası cırt-cırtlı kiçik kartlar
- Hərfləri saxlamaq üçün bir qab
- Üst tərəfində uşağın adının yazıldığı bir nümunə və alt tərəfinə cırt-cırtlı hissə

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Hərfləri söyləmək
- Hərfləri tanımaq
- Hərfləri eyniləşdirmək

**FƏRQLİ TƏTBİQLƏR:**

Bu tapşırıq müxtəlif hecalama mərhələləri üçün istifadə oluna bilər. Uşağın eyniləşdirmə bacarıqları inkişaf etdikcə, bir neçə hərfin üzərini kiçik qeyd vərəqələri ilə örtərək gizlədə bilərsiniz. Uşaq təkmilləşdikcə, bütün hərflərin üzəri örtülə və hər hansı nümunə olmadan da adını hecalaya bilər.



**BACARIQ 4: Kubik hərfləri birləşdirərək verilən sözü düzəltmək**

Uşaq kubuk hərfləri eyniləşdirərək verilən sözü düzəldir.




**MATERİALLAR:**

- Bir ayaqqabı qutusu və 4 kiçik qutu – ayaqqabı qutusunun sol tərəfinə bərkidilmiş bir, üst tərəfinə bərkidilmiş üç qutu
- Ayaqqabı qutusunun üstündəki qabların hər birinin sol tərəfinə yapışdırılmış, nümunə kimi istifadə edilməsi üçün şəkillərin üzərinə yazılmış sözlər
- Bir-birinə bağlanan hərflər və ya bir-birinə bağlanan üstündə hərflərin olduğu kubiklər

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Hərfləri söyləmək
- Hərfləri tanıma və eyniləşdirmək
- Kiçik-motorika

**FƏRQLİ TƏTBİQLƏR:**

Əgər bir-biri ilə əlaqəli hərflər yoxdursa, belə kubiklərdən istifadə edə bilərsiniz. Yuxarıdakı şəkildə rəngli nöqtəli “nakleyka”lar yer alır və hərflər nöqtələrin üzərinə yazılıb. Əgər bu variantların heç biri yoxdursa, kvadrat kartonların üstünə hərfləri yaza və arxalarına cırt-cırt vura bilərsiniz. Ayaqqabı qutusunun üst hissəsindəki qutuların hər birinin içinə cırt-cırt vursanız, uşaq hərflərdən ibarət kartonları sıra ilə həmin cırt-cırta yapışdırar.

## BACARIQ 5: Üzərində hərflər olan paltar sancaqları ilə söz düzəltmə

Uşaq üzərində hərflərin yazıldığı paltar sancaqlarını eyniləşdirərək söz düzəldir.




**MATERİALLAR:**

- Üzərində şəkil və söz olan kartlar (söz-şəkil kart dəstlərini dükanlardan ala və ya özünüz düzəldə bilərsiniz)
- Kartları saxlamaq üçün bir qab
- Hecalaya bilmək üçün üzərinə hərflərin tək-tək yazıldığı paltar sancaqları
- Paltar sancaqlarının taxıldığı bitmiş kartları yığmaq üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Hecalama
- Hərfləri tanıma və eyniləşdirmə
- Sözü görüb avtomatik mənalandırmaya başlanğıc
- Paltar sancaqlarını tutmak üçün lazım olan kiçik-motorika bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Bədahətən hecalaya bilən uşaqlar üçün eyni fikirdən istifadə edin, amma kartın üzərində yazılan sözləri daxil etməyin. Bu yolla uşaqlar paltar sancaqlarını şəkilli kartlara hər hansı kömək olmadan yapışdıra bilərlər.



## BACARIQ 6: Şəkillər ilə sadə cümlə qurma

Uşaq şəkil və yardım kartı vasitəsilə sadə bir cümlə qurur.




**MATERİALLAR:**

- "Bu ___ (nədir?) ___ (hansı rəngdir?)"  yazılı bir neçə cümləlik yardım kartları
- Uşağın doldurmalı olduğu iki boşluğa bərkidilmiş cırt-cırtlar
- Rəngi açıq və aydın olan əşyaların şəkilləri (arxası cırt-cırtlı)
- Arxaları cırt-cırtlı rəng şəkilləri (əşyalara uyğun gələn)
- Dörd kiçik qutu: biri yardım kartları, biri əşyaların şəkilləri, biri rəng şəkilləri, biri də hazır cümlələr üçün

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Cümlə qurma
- Rəngləri tanıma və eyniləşdirmə

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqlar "bu" və "...dir"dən istifadə edərək, bütöv cümlə qura bilərlər. Bu tapşırığı yaxşı yerinə yetirən uşaqlar növbəti mərhələyə keçə bilərlər.

**BACARIQ 7: Sözlər ilə sadə cümlə qurma**

Uşaq söz kartlarından istifadə edərək sadə cümlə qurur.




**MATERİALLAR:**

- Bir ayaqqabı qutusunun üstünə yapışdırılmış bir şəkil və şəklin altında cırt-cırt
- Sadə bir cümlə qurmaq üçün əvvəlcədən üzərinə sözlər yazılmış kartlar
- Arxaları cırt-cırtlı söz kartları
- Söz kartlarını saxlamaq üçün bir qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Sözü görüb tanıma
- Cümlə qurma

**FƏRQLİ TƏTBİQLƏR:**

Uşaqlar kəmiyyət və rəng sözləri əlavə etməklə daha uzun cümlə qura bilərlər. Məsələn, yaşıl bir qurbağa görürəm.



**BACARIQ 8: Hərf yazma**

Uşaq müxtəlif oyunlar vasitəsilə göstərilən hərfləri yazır.




**MATERİALLAR:**

- Hər birindən bir ədəd mavi və sarı fonlu karton
- Mavi, yaşıl və narıncı rənglərdə evalar (plastilinə bənzər maddə)
- Kartonun yan hissəsinə bərkidilmiş marker

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Ortaq diqqət
- Göz-əl koordinasiyası
- Kiçik motorika bacarıqları
- Yazı bacarıqları

**FƏRQLİ TƏTBİQLƏR:**

Bir hərf səsləndirib uşağın həmin hərfi ox ilə göstərməsi və sonra yazması tələb oluna bilər. Bu yolla həm kiçik motor çalışmaları yerinə yetiriləcək, həm də hərfi yadında saxlayıb yazması təmin olunacaq.

**BACARIQ 9: Varlıqların adlarını yazma**

Uşaq şəklini gördüyü varlığın adını hərfləri birləşdirərək yazır.




**MATERİALLAR:**

- Müxtəlif şəkil və hərf kartları
- Üstündə 4 üfüqi sıra (hər sırada bir dəst şəkilli kart) olan bir ayaqqabı qutusu
- Ayaqqabı qutusunu üzləmək üçün laminasiya və ikitərəfli skotç
- Şəkilli və hərf kartlarını qoymaq üçün iki bölməli qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Hərfləri tanımaq
- Hərfləri fərqləndirmək
- Vizual qavrayış
- Göz-əl koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Əvvəlcə, hərflər düzgün sırada verilir. Uşaqdan doğru sıraya yerləşdirməsi gözlənilir. Arxasınca uşağa hərflər qarışıq vəziyyətdə verilib sıraya düzməsi tələb oluna bilər. Məsələn, “fil” sözünün hərfləri uşağa qarışıq şəkildə təqdim olunur (l, f, i), ondan bu hərfləri düzgün sıralaması tələb olunur.



**BACARIQ 10: Qum üzərində hərf yazma**

Uşaq barmağı ilə qumun üzərində hərf yazır.




**MATERİALLAR:**

- Laminasiya olunmuş hərflər
- Cırt-cırtlı zolaqlar
- Qumu qoymaq üçün qab
- Narın qum

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Kiçik motorika bacarıqlarının inkişafı
- Böyük motorika bacarıqlarının inkişafı
- Yazı bacarıqlarının inkişafı
- Əl-göz koordinasiyası

**FƏRQLİ TƏTBİQLƏR:**

Yetkin uşaqdan hərfi söyləməsi və hər hansı nümunəyə baxmadan qum üzərinə hərfi yazması tələb oluna bilər. Digər işarə və anlayışları öyrətmək üçün qumun üzərində yazılar da yazdırıla bilər.

## BACARIQ 11: Hərflərin üstündən yazma

Uşaq kəsilmiş hərflərin içinə qələm ilə hərf yazır.




**MATERİALLAR:**

- Kartondan kəsilmiş və içinə yazı yazıla biləcək qədər boşluğu olan hərflər
- Qələm
- A4 ölçüsündə laminasiya olunmuş kağız
- Bu tapşırıq ilə bağlı laminasiya olunmuş kiçik şəkillər
- İkitərəfli cırt-cırt
- İki bölməli qab

**HƏDƏFLƏNƏN BACARIQLAR:**

- Əl-göz koordinasiyası
- Kiçik motorika bacarıqlarının inkişafı
- Hərfləri fərqləndirmək
- Yazı bacarıqları
- Sıraya riayət etmə

**FƏRQLİ TƏTBİQLƏR:**

